www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 fevral 2016-cı il Cümə № 45 (6366) Qiyməti 60 qəpik

**Xəbər**

**İlhamə Quliyevanın sirli ölümü - evindən barmaq izləri götürüldü**

yazısı səh.3-də

**Gündəm**

**İntiqamını gözləyən Xocalının 24-cü ili**



Soyqırımı törədən ermənilər gec-tez məhkəmə qarşısında cavab verməli olacaqlar

yazısı səh.5-də

**"MTN işi" növbəti mərhələdə - videoşantajlar...**

yazısı səh.3-də

**Smitin layihəsinin qarşısını almaq üçün 50 min dollar...**

yazısı səh.11-də

**Xocalı şahidi olan ukraynalı pilot o dəhşətdən danışdı**

yazısı səh.10-da

*Sülhəddin Əkbər:*

**"İqtidar müxalifətin dirçəlməsində maraqlı olmalıdır, çünki..."**

yazısı səh. 8 və 9-da

**"Forbes"dən bölgədə böyük müharibə xəbərdarlığı**

yazısı səh.11-də

**Mərkəzi Bankın dollar "simicliyinin" səbəbi üzə çıxır**

yazısı səh.12-də

**Hakimiyyət estafeti yaşlılardan alır**

yazısı səh.4-də

**Elçibəy iqtidarının fevral səhvləri**

yazısı səh.12-də

**Azərbaycan prezidenti Əsədə, yoxsa sülhə "hə" deyib?**

yazısı səh.10-da

**Diplomlu işsizlər-ekspertlər təkliflər verir**

yazısı səh.13-də

**Dövlət müəssisələrinin özəlləşdirilməsi niyə yubanır?**

yazısı səh.6-da

## Obama-Əliyev görüşü üçün hazırlıqlar başlayıb

# VAŞİNQTONDA İQTİDARLA ŞOK MÜZAKİRƏLƏR-MASADA NƏLƏR VAR...

Qərb diplomatik mənbələrindən "Yeni Müsavata"a sızan xəbərə görə, artıq bir neçə həftədir ki, Amerika və Azərbaycan nümayəndələri mütəmadi görüşlər keçirir; Vaşinqton həbsdə olan siyasi məhbusların azad olunmasını, Milli Demokratiya və Amerika Respublikaçılar institutlarının Bakıda fəaliyyətinin bərpa edilməsini istəyir; bəs, rəsmi Bakının şərtləri nədir...




yazısı səh.7-də

## Azərbaycanın notası, Putinin Bakıya qəfil zəngi...

Kremlə münasibətlərdə maraqlı gəlişmə; Azərbaycanın Ermənistanla bağlı Moskvaya verdiyi etiraz notası ilə dəyişən ritorikanın və Türkiyəyə reverans fonunda şimaldan gələn zəngin pərdəarxası

yazısı səh.7-də



Əli Əhmədov

**YAP-ın icra katibi Siyavuş Novruzovu "vurdu"**

yazısı səh.13-də



Ülvi Mansurov

**"Məşhur bəstəkarın oğlunun adı bank qalmaqalında**

yazısı səh.13-də



**Tofiq Yaqublunun məhkəmə işində "yanan palto" müəmması**

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 45 (6366) 26 fevral 2016



Mariya Zaxarova

## Rusiya XİN Ermənistana silah satışı ilə bağlı açıqlama verdi

**"Rusiya tərəfindən Ermənistana və dost Azərbaycana istənilən silah tədarükü regionda sabit vəziyyətin saxlanmasının vacibliyi nəzərə alınmaqla dəqiq həyata keçirilir".**

Bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova "Trend" agentliyinin Ermənistana silah satışı ilə bağlı Azərbaycanın Rusiyaya nota verməsi barədə sorğusunu cavablandırarkən deyib.

## "A.M.A.Y. Abdulla"nın işinə Ali Məhkəmədə baxılacaq

**Yaxın günlərdə Ali Məhkəmədə "A.M.A.Y." ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayevin kasasiya şikayətinə baxılacaq.**

Bu barədə virtualaz.org saytına A.Abdullayevin vəkili Osman Kazımov bildirib. Vəkil müdafiə etdiyi şəxsin kasasiya şikayətinə martın 2-də Ali Məhkəmənin hakimi İlham Cəfərovun sədrliyi ilə baxılacağını deyib.

Qeyd edək ki, A.Abdullayev Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilir. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə A.Abdullayev 13 il il müddətinə azadlıqdan məhrum edilib.

Hökmdən narazı qalan A.Abdullayev bəraət hökmünün çıxarılması barədə apelyasiya şikayəti ilə məhkəməyə müraciət edib. Lakin məhkəmə onun şikayətini təmin etməyib. Bundan sonra o, kasasiya şikayəti ilə Ali Məhkəməyə müraciət edərək, barəsində bəraət hökmünün çıxarılmasını istəyib.

## Azərbaycan Rusiya ərazisi ilə neft tranzitini bərpa edir

**SOCAR və "Transneft" 2016-cı il martın 1-dən Azərbaycan neftinin Bakı-Novorossiysk neft kəməri ilə nəqlinə dair müqavilə imzalayıblar. Bunu Rusiya boru kəməri monopoliyası prezidentinin müşaviri, mətbuat katibi İqor Demin Neft İnformasiya Agentliyinə bildirib.(«Turan»).**

"Müqaviləyə uyğun olaraq martın 1-dən nəqlə başlayacağıq", - o qeyd edib.

İlkin olaraq il ərzində 1,3 mln. -a yaxın nəql planlaşdırılmışdı, lakin müqavilənin martda qüvvəyə minəcəyi ilə əlaqədar həcm az olacaq.

Azərbaycan 1997-ci ildən öz qazını Bakı-Novorossiysk boru kəməri ilə nəql edir. Azərbaycan Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2015-ci ildə Azərbaycan Dövlət Neft Şirkəti "şimal" boru kəməri ilə 1,2 mln. ton neft nəql edib. "Transneft"lə 2016-cı il üçün müqavilə olmadığından SOCAR bu ilin yanvar-fevral aylarında bu marşrutla xammal nəql etməyib.

## Suriya kürdləri atəşkəsə razı oldular

**Suriya kürdlərinin silahlı dəstələri atəşkəs rejiminə riayət etməyə hazır olduqlarını deyib. Modern.az xarici KİV-ə istinadən xəbər verir ki, Demokratik İttifaq Partiyası və Xalq Özünümüdafiə Qüvvələri (YPG) bununla bağlı açıqlama veriblər.**

Onlar 27 fevraldan etibarən 2 həftə müddətində Suriya müxalifəti və Əsəd qoşunları ilə atəşkəsə razı olduqlarını bəyan ediblər.

Rusiya xarici işlər nazirinin müavini Mixail Boqdanov Suriya kürdlərinin atəşkəs rejimindən kənarda qalmaları ilə bağlı istəyini "boş şey" adlandırmışdı.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

# Leyla və Arif Yunusların işinə yenidən baxılacaq

**Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus və həyat yoldaşı Arif Yunus barələrində verilmiş apelyasiya şikayəti üzrə məhkəmə işi Bakı Apelyasiya Məhkəməsinə göndərilib.**



Bu barədə virtualaz.org saytına vəkil Elçin Sadıqov bildirib. Apelyasiya şikayətinə hakim Həsən Əhmədovun sədrliyi ilə baxılacaq. Qeyd edək ki, Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus və onun həyat yoldaşı Arif Yunus müalicə almaq üçün müvəqqəti Azərbaycan Respublikası hüdudlarından kənara çıxmağa icazə verilməsi üçün Yasamal Rayon Məhkəməsinə ərizə ilə müraciət ediblər. Məhkəmə iddia ərizəsini təmin etməyib. Qərardan apelyasiya şikayəti veriblər.

Xatırladaq ki, L.Yunus Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə), 192.2.2-ci (qanunsuz sahibkarlıq, külli miqdarda gəlir əldə etməklə törədildikdə), 213.2.2-ci (vergi ödəməkdən yayınma, külli miqdarda törədildikdə), 320.1-ci (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə, hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və qanunsuz hazırlama, yaxud ya bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma) və 320.2-ci (bu Məcəllənin 320.1-ci maddəsində göstərilmiş bilə-bilə saxta sənədlərdən istifadə etmə), 274 (dövlətə xəyanət) maddələri ilə ittiham olunub.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 13 avqust 2015-ci il tarixli hökmü ilə L.Yunus isə 8 il 6 ay, onun həyat yoldaşı, Sülh və Demokratiya İnstitutunun eksperti Arif Yunus isə 7 il müddətinə azadlıqdan məhrum edilib. Həmçinin, məhkəmədə onların əmlaklarının müsadirə olunması, bank hesablarındakı vəsaitin alınaraq dövlətin hesabına köçürülməsi qərara alınıb.

Noyabrın 12-də A.Yunus barəsində həbs-qətimkan tədbiri dəyişdirilib və ondan başqa yerə getməməklə bağlı iltizam alınıb. Dekabr ayının 9-da isə L.Yunus barəsində seçilmiş həbs-qətimkan tədbiri ləğv edlib, o, 5 il sınaq müddəti təyin olunmaqla, məhkəmə zalından şərti azadlığa buraxılıb. Bundan başqa, onun qızının evinə qoyulmuş həbs də götürülüb.

## Rusiya azərbaycanlını İnterpol xətti ilə axtarışa verib

**Rusiya hüquq-mühafizə orqanları Azərbaycan vətəndaşı barəsində beynəlxalq axtarış elan edib.**

APA-nın məlumatına görə, bu barədə İnterpolun saytında məlumat yerləşdirilib. Məlumatda qeyd olunur ki, 1992-ci ildə İmişli rayonunun Soltanmuradlı kəndində doğulmuş Vüsal Bədəlov qanunsuz silahlı dəstənin yaradılmasında iştirakda təqsirləndirilir.

V. Bədəlov Rusiyanı tərk etdiyi üçün barəsində dövlətlərarası axtarış elan edilib və saxlanılması üçün İnterpola müraciət olunub.

Hazırda onun tutulması istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.



Sabir Ələsgərov

## Tanınmış diktorun vəziyyəti ağırdır

**Ötən gün şəhər kliniki xəstəxanasının reanimasiya şöbəsinə yerləşdirilən xalq artisti, tanınmış diktor Sabir Ələsgərovun vəziyyəti ağırdır. Tanınmış diktorda xalq arasında qan zəhərlənməsi kimi tanınan sepsis xəstəliyi aşkar olunub. Bu barədə xalq artistinin qızı Mehriban Ələsgərova "Yeni Müsavat"a açıqlamasında bildirib:**

"Vəziyyəti çox ağırdır. Sepsis olub. Soyuqdəymədən, mikrobdan infeksiya olub. Şükür ki, orqanları hələ sıradan çıxmayıb, amma ola bilər, buna görə aparata qoşulub ki, təmizlənsin".

❑ Xalidə GƏRAY

## İran Sumqayıtda dərman zavodu tikəcək

**İran Sumqayıtda dərman zavodu tikəcək. Modern.az xəbər verir ki, bu barədə jurnalistlərə İranın Azərbaycandakı səfiri Möhsün Pakayin bildirib. O deyib ki, zavod Sumqayıt Kimya Parkında inşa olunacaq.**

Səfir dərman istehsalının 3 mərhələdə olacağını da qeyd edib:

"Birinci mərhələdə ehtiyac duyulan dərmanlar, ikincidə isə dərman istehsalı texnologiyası Azərbaycana gətiriləcək. Üçüncü mərhələdə isə həmin dərmanlar 100 faiz Azərbaycanda istehsal olunacaq".



## "Naz Lifan" 3 yeni modelin istehsalına başlayır

**Naxçıvan Avtomobil Zavodu 3 yeni "Naz Lifan" modelini istehsal etməyə başlayacaq.**

Bu barədə zavodun direktoru Musa Abdullayev bildirib. Belə ki, zavod rəhbəri bir neçə gün əvvəl Çində olub. Onun sözlərinə görə, ilkin olaraq təklif edilən 8 modeldən 3-nün Naxçıvanda yığılması planlaşdırılır.

## Təhsil Nazirliyi maaş artımının hansı müəllimlərə şamil olunmadığını açıqladı

**Azərbaycan prezidentinin təhsil müəssisələrində çalışan işçilərin əmək haqlarının artırılması ilə bağlı bu il imzaladığı sərəncam diaqnostik qiymətləndirilmədən keçən müəllimlərə şamil olunmur.**

Bu barədə "Report"un sorğusuna cavab olaraq Təhsil Nazirliyinin mətbuat xidmətindən bildirilib.

"Azərbaycan Respublikası Prezidentinin "Təhsil müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2016-cı il 18 yanvar tarixli 1709 nömrəli sərəncamına əsasən dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində (ali təhsil müəssisələri istisna olmaqla) çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılıb. Bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsindən keçmiş müəllimlərin əmək haqqı Vahid Tarif Cədvəli əsasında ödənilmədiyi üçün qeyd olunan artım həmin müəllimlərə şamil olunmur", - nazirlikdən bildirilib.

## Rusiyada kömür mədənində uçqun

**Rusiyanın şimalında yerləşən Vorkuta şəhərindəki kömür mədənlərindən birində uçqun olduğu bildirilir. Avropa.info xəbər verir ki, ilkin məlumatlara görə, Vorkuta şəhərində yerləşən "Severnaya" mədənində baş vermiş uçqun zamanı 88 nəfər uçqunun altında qalıb.**

Hadisə haqda məlumatı "Vorkuta Kömür" şirkətinin mətbuat xidmətindən veriblər. Şirkətin yaydığı məlumata görə, kömür mədəni ilə əlaqə tamamilə kəsilib. Uçqunun mədənin yerləşdiyi ərazidə baş vermiş yeraltı təkanlar səbəbilə əmələ gəldiyi bildirilir. Uçqunun altında qalmış mədən işçilərinin xilas edilməsi üçün əməliyyat başladılıb.

Yeni MÜSAVAT
N 45 (6366) 26 fevral 2016

# Günün içindən



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

## Tofiq Yaqublunun məhkəmə işində "yanan palto" müəmması



**Şəki Apelyasiya Məhkəməsində "REAL" hərəkatının həbsdə olan həmsədri İlqar Məmmədov və Müsavat Partiyası başqanının həbsdə olan müavini Tofiq Yaqublunun apelyasiya şikayətləri üzrə fevralın 25-nə təyin olunan ilkin məhkəmə baxışı iclası təxirə salınıb.**

Tofiq Yaqublunun vəkili Nemət Kərimlinin APA-ya verdiyi məlumata görə, prosesdə Penitensiar Xidmətin məhkəməyə göndərdiyi məktub oxunub. Məktubda qeyd olunub ki, işlərin çoxluğundan məhkumları məhkəməyə gətirmək mümkün olmayıb.

Bundan əlavə, hakim bildirib ki, cinayət işi üzrə daha bir zərərçəkmiş şəxs müəyyən edilib. Baxış Kəsər adlı Türkiyə vətəndaşı ölkəsindən məhkəməyə teleqram vuraraq prosesə gələ bilmədiyini bildirib.

Baxış Kəsərin İsmayıllı hadisələri zamanı paltosunun yandığı açıqlanıb. Onun indiyə kimi şikayət etmək imkanı olmadığından bir qədər öncə məhkəməyə müraciət edib. B. Kəsərin məhkəməyə göndərdiyi teleqramda mənəvi sarsıntı keçirdiyi bildirilib.

Məhkəmə prosesi qeyri-müəyyən vaxtadək təxirə salınıb.

Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə İlqar Məmmədov 7 il, Tofiq Yaqublu 5 il müddətinə azadlıqdan məhrum edilib. Hökmdən verilən apelyasiya şikayəti Şəki Apelyasiya Məhkəməsinin qərarı ilə təmin edilməyib. Bundan sonra onlar Ali Məhkəməyə kassasiya şikayəti ilə müraciət ediblər. Kasasiya şikayətində onların barəsində olan hökmün ləğv edilməsi, həmin şəxslərin azadlığa buraxılması barədə məsələlər qeyd olunub.

Ali Məhkəmə kasasiya şikayətini qismən təmin edib. Şəki Apelyasiya Məhkəməsinin İ. Məmmədov və T. Yaqublu barəsindəki qərarı ləğv edilib, iş yenidən Şəki Apelyasiya Məhkəməsinə qaytarılıb.

İ. Məmmədov və Tofiq Yaqublu İsmayıllı hadisələrinə görə həbs olunublar.

**Xalq artisti İlhamə Quliyeva fevralın 25-də səhər saatlarında vəfat edib. Musavat.com xəbər verir ki, sənətçinin ölüm xəbərini eşidən qohumları, sənət dostları və media nümayəndələri onun Yeni Yasamal İ.Qutqaşınlı küçəsində yerləşən evinin qarşısına toplaşıb. Jurnalistlər müğənninin mənzilinə buraxılmayıb. Onlara bildirilib ki, prokurorluq əməkdaşları müğənninin evindər və oradan əl izləri götürülür.**



xanım gərək xeyli yaşayaydı. Azərbaycan incəsənətində yeri olan xanımdı. Onu tükətdilər. Allah rəhmət etsin".

Xalq artisti İlhamə Quliyeva ilə vida mərasimi fevralın 26-da saat 12.00-dan 14.00-dək Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında keçiriləcək.

Bu barədə "Report"a Mədəniyyət və Turizm Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Nazirlikdən bildirilib ki, xalq artisti II Fəxri Xiyabanda, anası Tükəzban İsmayılovanın yanında dəfn ediləcək.

Publika.az-ın əməkdaşının

# İlhamə Quliyevanın sirli ölümü

### Qalmaqallı müğənni Fəxri Xiyabanda dəfn olunacaq; onun zəhərlənməsi versiyası da araşdırılır; **Firuzə İbadova:** "Onu tükətdilər"...

**Teleaparıcı Elgiz Əkbər İlhamə Quliyevanın yanına jurnalistlərin buraxılmamasına etiraz edib:** "Birinci dəfə görürəm ki, yas yerinə jurnalistlər buraxılmır, bu qədər polis var. Bu da bizdə şübhə doğurur. İnsan əcəli ilə ölübsə, imkan versinlər yanına gedək. İlhamə vəsiyyət edib. Deyib ki, anamın üzərinə salınan qırmızı yaylığı üstümə örtərsiniz və mümkünsə, məni tabutda basdırın".

**İ. Quliyevanın dayısı oğlu, müğənni Əli Mirəliyev jurnalistlərə xalq artisti ilə bağlı açıqlama verib:**

"Dünən axşam saatlarında danışdıq, özünü yaxşı hiss edirdi. Səhər halı pisləşib, köməkçisinə deyib ki, həkim çağırsın. Daha sonra qızım zəng etdi ki, bibinin halı pisdir, bizi çağırır. O, sonuncu dəfə mənimlə qızımı görmək istəyib. Həkim gələnə kimi keçinib. Biz gələndə artıq rəhmətə getmişdi".

Əli Mirəliyev sahə həkiminin xalq artistinin ölümünə dair yazdığı arayışı da jurnalistlərə təqdim edib.

**Müğənninin evinə girən aparıcı Lamiyə Ələkbərova isə bunları deyib:** "Evdə əl izləri götürülür. Mən onun ölümünün səbəbləri barədə nəsə deyə bilmərəm. Bildiyimə görə ürəktutmasından ölüb. Yəqin polis geniş açıqlama verər. Yatağından heç qalxmayıb, artıq üzünü örtüblər. Son vəsiyyəti isə bu olub ki, üzərini qırmızı kəfənlə örtsünlər və tabutda anası Tükəzban İsmayılovanın yanında dəfn etsinlər. Mənim üçün çox çətindir. Gecə mənə zəng etdi. Dedi ki, Lamiyə, 8 martda verilişinə qonaq gəlmək istəyirəm, çoxlu güllər olacaq? Dedim ki, siz gəlin, hər şey olacaq. Son danışığımız bu oldu. Allah rəhmət etsin".









Xalq artisti İlhamə Quliyevanının oğlu Orxan Nadirov mərhumun hüzr mərasiminə gəlmiş jurnalistlərə qarşı hörmətsizlik edib, onlarla aqressiv davranıb. Jurnalistlərə qışqıran O.Nadirov deyib: "Sizin öləniniz olub? Sizin keçirdiyiniz hisslərdən keçirirəm". O bunu deyəndən sonra uzaqlaşıb.

"İlhamə Quliyevanın nəşinin Pataloji Anatomiya Burosuna ekspertizaya gətirilməsinə səbəb onun keçmiş köməkçisi Mehriban Hüseynova tərəfindən zəhərlənməsi ilə bağlı verdiyi açıqlama olub".

Bunu jurnalistlərə İ.Quliyevanın qohumu, müğənni Əli Mirəliyev deyib.

O bildirib ki, ekspertiza İ.Quliyevanın ürək çatışmazlığından, yaxud zəhərlənmədən öldüyünə aydınlıq gətirəcək.

Xalq artistinin rəfiqəsi, müğənni Firuzə İbadova mərhumun evinin qarşısında göz yaşı tökərək deyib: "Mənə çox pis təsir etdi. 45 il bacı kimi olmuşuq. İlhamə

verdiyi məlumata görə, prokurorluq əməkdaşları xalq artistinin evində zəruri istintaq hərəkətləri aparıblar. Hətta onun evindən əl izlərinin götürüldüyü də bildirilir. Bu isə hüquq-mühafizə orqanları əməkdaşlarının sui-qəsd versiyasını da araşdırdıqlarını sübut edir. Qeyd edək ki, İlhamə Quliyeva dəfələrlə ona qarşı sui-qəsd hazırlandığı və öldürülməsinə cəhd edildiyi barədə bəyanatlarla çıxış etmişdi.

❑ **Könül İBRAHİM**

# "MTN işi" növbəti mərhələyə keçdi

### Vəzifəlilərin videoşantaj olunması üzə çıxır; konkret ünvanlar göstərilir, hotellərin adları çəkilir

**"MTN işi" üzrə istintaq keçmiş nazir Eldar Mahmudovun şəbəkəsinin videoşantaj əməliyyatlarını araşdırır. "Azadlıq" qəzetinin yazdığına görə, videoşantaj əməllərinin başında hazırda həbsdə olan MTN generalı Akif Çovdarov dayanırmış. İstintaqda şübhələr var ki, bəzi məmurlar şantajın qurbanı olaraq hələ də şəbəkəyə xidmət göstərə bilərlər. Akif Çovdarovdan başqa çete üzvlərindən bir neçəsinin də nəzarətində əyləncə mərkəzləri, hotel və restoranlar olub ki, həmin ünvanlara da gizli videokameralar yerləşdirilib.**



İstintaqın bu məsələni araşdırması ölkənin ictimai-siyasi həyatında baş verən bir sıra xoşagəlməzliklərin səbəblərini ortaya qoyacağı şübhəsizdir. Bundan başqa, videoşantaj epizodları üzrə araşdırmalar Akif Çovdarovun dəstəsinə, yaxın ətrafına aid olan adamların ayrı-ayrı tanınmış ictimai-siyasi şəxslərin, jurnalistlərin mənzillərinə, ofislərinə gizli kameralar qoyulması məsələsinin də zatən ortada olan faktlar üzrə rəsmi şəkil almasına gətirib çıxara bilər.

Bu məlumatlarla yanaşı, bu vaxta qədər olan siyasi pornoşantajlarda da Akif Çovdarovun və onun dəstəsinin əlinin olması haqda gümanlar vardı. İctimai şəxslərin mənzillərinə yerləşdirilən gizli kameralarla əlverişsiz şəraitdə videoları çəkirdilər. Sonradan isə həmin videolar ən müxtəlif vasitələrlə ictimailəşdirilirdi.

Görünür, MTN çetesi təkcə siyasi pornoşantajla kifayətlənməyib və şəxsi maddi maraqlarının da videoşantajla təmin etmiş olublar. İmkanlı şəxslərin, biznesmenlərin istirahət yerlərində, hotel və mehmanxanalarda videolarını çəkiblər. Sonradan həmin şəxslərə videoların varlığı haqda məlumat verilərək ictimailəşdirilməməsi qarşılığında xeyli pul tələb ediblər. Gələn məlumatlar onu deməyə əsas verir ki, artıq ləğv edilmiş MTN-in istintaq altında olan keçmiş rəhbərliyinin işi üzrə araşdırmalar yeni mərhələyə - videoşantaj işinin araşdırılmasına gəlib çatıb.

Bir müddət əvvəl bu mövzuda maraqlı xəbər yayılmışdı. Həmin xəbərdə bildirilirdi ki, Bakıda fəaliyyət göstərən elit hotellərdən bir neçəsinin - "Emerald", "Clear" və "Astoria Baku"nun arxasında Akif Çovdarov dayanıb. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin hazırda həbsdə olan aparat rəhbəri Vidadi Zeynalov isə həmin hotellərə nəzarət edib. Rəsmi olaraq bu hotellər ayrı-ayrı MMC-lərə məxsusdur. Bu hotellərin V.Zeynalova aidiyyətini dolayısı ilə təsdiqləyən məqamlardan biri də Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin balansında olan ərazilərdə yerləşmələridir. Hotellərin icarəçilərə V.Zeynalov tərəfindən təhvil verilməsi haqda da məlumatlar vardı. Məsələ bununla yekunlaşmır. Yayılan xəbərlərdə deyilir ki, Akif Çovdarovun gizli videogörüntülərinin əksəriyyəti də bu hotellərdə çəkilib. Vəzifəli şəxslərin, tanınmış simaların "gözdən uzaq" hesab etdikləri bu hotellər, xüsusilə "Astoriya Baku" tələyə çevrilib. Bəzi yüksək çinli məmurların belə burada Mahmudov-Çovdarov şəbəkəsinin qurbanına çevrildiyi gələn məlumatlar arasındadır.

İndiyədək bu mövzuda Nizami rayonu ərazisində yerləşən "Emerald" hotelinin də adı hallanıb.

**JAM.az saytı bir neçə müddət öncə "Emerald" hoteli haqda yazmışdı. Həmin yazıdan sitat:** "Qaynağımızın iddiasına görə, bir neçə müddət öncə istifadəyə verilən və 5 mərtəbədən ibarət olan hoteldə ən ucuz otağın qiyməti 70-90 manatdan başlayır. Mənbənin sözlərinə inansaq, hoteldəki otaqların hər biri yüksək şəraitlə təmin edilib: "Hotelin müştərilərinin çoxunu imkanlı şəxslər təşkil edir. Onların arasında müxtəlif vəzifələrdə çalışan insanlar da var. Müştərilərin əksəriyyəti hotelin birinci mərtəbəsində yerləşən restoranda yeyib-içib daha sonra otaqlara keçirlər. Otaqların qiyməti isə müxtəlifdir. "Emerald" hoteldə sadə otağın bir gecəlik qiyməti 70 manatdır. Hər cür şəraitlə təmin olunan VİP otaqların qiyməti isə 120 manatdan başlayır. Bahalıq üzündən maddi durumu aşağı olan şəxslər hotelə gələ bilmir. Həftənin hər günü fasiləsiz fəaliyyət göstərən hotel əməlli-başlı əxlaqsızlıq yuvasına çevrilib. Bura gələn cavan oğlan və azyaşlı qızların məqsədi məlumdur. Onlar hoteldə bir neçə saat ərzində əylənirlər".

Sayt o vaxt həmçinin yazmışdı ki, əxlaqsız əməllərin intensiv xarakter aldığı məkanlardan biri də "Clear" hoteldir. Xatırladaq ki, son 10 ildə "Clear"ın adı daim mənfi planda hallandırılıb. Lakin indiyədək obyekt rəhbərliyi bu barədə ictimaiyyətə heç bir izahat verməyib.

Babək prospektində yerləşən "Astoria Baku" hotelinin adı yaxşı hallanmır. Bu obyekt barədə də indiyədək saytlarda mənfi planda çox yazılıb. İddialara görə, ləğv edilmiş MTN-in həbsdəki və istintaq altındakı sabiq rəhbərliyi "Astoriya Baku", "Sərin" hotellərindən şantaj məqsədilə çox istifadə edib.

Bu məlumatlardan da belə nəticəyə gəlmək olar ki, A.Çovdarovun şəbəkəsinin gizli kameralarının obyektivi qarşısında xeyli şəxs özü də bilmədən pornoulduza çevrilib. Sonradan həmin şəxslərin neçəsinin şantaja məruz qaldığını isə istintaq müəyyən etməlidir.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 45 (6366) 26 fevral 2016

# Hakimiyyət estafeti yaşlılardan alır

## Qabil Hüseynli: "...Bütün yaşlı kadrlar gedəcək, yerini gənclər tutacaq"

**Azərbaycan iqtidarının gəncləşmə siyasətinə başladığı barədə xəbərlər yayılıb. Ötən ilin oktyabr-noyabr aylarında Milli Təhlükəsizlik, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində yaşanan məlum proseslərdən sonra iqtidarın gənc kadrlara ehtiyac duyduğu deyilir.**

Yayılan xəbərlərdə bildirilir ki, artıq hökumət xaricdə təhsil alan, işsizlik ucbatından xaricə üz tutan gənclərin ölkəyə qaytarılması istiqamətində işlər aparır. Həmin gənclərin ilk olaraq, təcrübə toplaması üçün aşağı vəzifələrə təyin olunduqları, yaxın gələcəkdə isə daha yüksək vəzifələrə, hətta nazirliyə qədər gedib çıxacaqları deyilir. Əslində qalsa, son illərdə iqtidarın qismən də olsa, gənc kadrlara önəm verdiyini söyləmək olar. Bu proses 2012-ci ildə Elşad İskəndərov, Fərhad Məmmədov və İnam Kərimov kimi gənclərin təyinatları ilə start götürsə də, təhsil naziri Mikayıl Cabbarovla dayandı. Yeni təyin olunmuş rabitə və informasiya texnologiyaları nazirinin 38, eləcə də AŞ PA-da Səməd Seyidovu əvəzləyən deputat Vüsal Hüseynovun 36 yaşının olduğunu düşünsək, bu şəxsləri də aparılan gəncləşdirmə siyasətinin tərkib hissəsi kimi qəbul etmək olar.

Onu da qeyd edək ki, hakimiyyətin bu siyasəti həyata keçirməsi elə də asan olmayacaq. Çünki yaşlı kadrların kreslo həvəsləri, gəncliyə qısqanc münasibətləri göz önündədir. Bu məsələdə iqtidarın qətiyyətli mövqeyi əsas rol oynayacaq.

Yayılan xəbərlərin fonunda hakimiyyətin gənc kadrlara ehtiyac duyması səbəb kimi, hazırda Azərbaycanda yüksək vəzifələrdə yaşlıların olması göstərilir. İstər ölkə daxilində, istərsə də ölkə xaricində iqtidarın bu məsələdə daim tənqidlərə məruz qaldığı göz önündədir. Eyni zamanda hakim komandanın kadr qıtlığı ilə üzləşdiyi də yayılan xəbərlər sırasındadır.

Ekspertlər hesab edirlər ki, hakimiyyət gəncləşmə islahatını mərhələ-mərhələ aparacaq. Buna səbəb kimi, iqtidardaxili böhranın başvermə ehtimalı göstərilir. Uzun illədir geniş imtiyazlar qazanan iri ranqlı məmurların vəzifələrini xoşluqla verməyəcəklərini düşünsək, hakimiyyətin qısa müddətdə gəncləşmə siyasətini aparmayacağı qənaətinə gəlmək olar.



**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli bildirdi ki, hakimiyyətin gəncləşmə siyasəti apardığı göz önündədir:** "İqtidarın gənclərə diqqət ayırdığını düşünüb inanmamalıyıq ki, bütün yaşlı kadrlar gedəcək, yerini gənclər tutacaq. Zənnimcə, hakimiyyət o zaman güclü olur ki, yaşlı, orta və gənc insanların gücləri, təcrübələri birləşir. Elə kadrlar var ki, kifayət qədər təcrübələri var, onların imkanlarından istifadə etmək lazım gəlir. Həmin şəxsi qəflətən çıxarıb, yerinə təcrübəsiz gənc kadrı qoymaq da düzgün olmazdı. Gənclərin tutacaqları vəzifələr aşağıdan başlamalıdır. Tədricən təcrübə toplaya-toplaya yüksəlməlidirlər. Amma inqilabi kadr dəyişikliyinə gediləcəyini düşünmürəm. Bunu vacib də hesab etmirəm. Komanda da gənc, orta və yaşlı nəslin təcrübəsi, onların ənənələri qorunub saxlanılmalıdır".



**Politoloq hakimiyyətin yaşlı məmurlara görə üzləşdiyi tənqidlərdən də söz açdı:** "Uzun müddət vəzifədə olmuş, dövrünü keçirmiş kadrlardan hakimiyyət imtina edə bilər. Amma təcrübəli, yetkin dünyagörüşə malik kadrlardan imtina edilməsi hakimiyyətdə boşluq yarada bilərdi. Buna nəsillərin estafeti deyirlər. Hakimiyyətin yaş qrupları 30-dan başlamalıdır. Burada nəsillər arası təcrübə, fikir mübadiləsi olmalıdır ki, çevik idarəetmə aparatı formalaşa bilsin".

**Q.Hüseynli hakimiyyətin gənclər siyasətini sürətləndirəcəyi təqdirdə, üzləşə biləcəyi ehtimallardan da danışdı:** "Bu böhrana səbəb ola bilməz. Amma yenə də deyirəm ki, proses tədricən getməli, müəyyən nisbətdə aparılmalıdır. Cavan və yaşlı nəsil arasında əlaqələr uzlaşdırılmalıdır. Prosesə inqilabi yanaşmanın tərəfdarı deyiləm. Bu proses təkamül meylli olmalı, hakimiyyət elə etməlidir ki, daxildə böhran baş verməsin. Unutmaq olmaz ki, gənclər siyasəti aparılır, onlar müxtəlif vəzifələrə təyin olunurlar. Hakimiyyət strukturlarında kifayət qədər gənclər var. Təhsil və rabitə nazirləri kifayət qədər gəncdirlər. Onlar nazir təyin olunarkən, doğru olub-olmaması müəyyən şübhələr yaratmışdı. Amma onlar etimadı doğrultmaqdadırlar. Ucdantutma gəncləşmə prosesi mümkün də deyil. Dünyanın hər yerində də bu prosesə tədricən, təkamül yolu ilə aparılan proses kimi baxılır".

**Keçmiş dövlət müşaviri hakimiyyətin kadr qıtlığı yaşamadığı qənaətindədir:** "Eşitdiyimə görə, iqtidarın "kadr bankı" var. Yeri gələndə bu bankdan istifadə edirlər. Niyə də kadr qıtlığı yaşasınlar? Məgər obyektiv, savadlı, vətənpərvər ruhlu şəxslər Azərbaycanda tükənib? Bu şəxslərin region mənsubiyyətinə, müxtəlif əlamətlərinə fikir verilməsə, kifayət qədər kadr potensialı var. Bunlar öz vətənləri üçün çalışmağa dəim hazırdırlar. Təki onlara müraciət olunsun".

**Politoloq xaricdəki ali təhsilli gənclərin ölkəyə qaytarılması ilə bağlı yayılan xəbərlərə də münasibət bildirdi:** "Hakimiyyət xaricdəki gəncləri geriyə qaytarıb, bu prosesi sona qədər apara bilər. Amma bunların mənşəyi oliqarx olsa, heç nə dəyişməyəcək. Savadlı, vətənini xaricdə yüksək səviyyədə təmsil edən şəxslər seçiləcəksə, güman edirəm ki, belə olacaq, o zaman ölkədə proseslər müsbətə doğru dəyişəcək. Hər şey seçimdən asılıdır".

❑ **Cavanşir ABBASLI**

# "Sovetski" sakinlərinə seçim şansı verilmədi

## Evlər zor-xoş söküləcək, yerində park salınacaq

**"Sovetski"də 2 ildən çoxdur başlayan söküntü işləri hələ də davam edir. Bakı şəhərinin Baş Planına əsasən "Sovetski" adlanan ərazidə verilən kompensasiya ilə razılaşan sakinlərin evləri sökülüb, digərləri ilə isə hələ də danışıqlar gedir. Söküntü işlərinin başlanacağı haqda xəbərdarlıq edildiyi gündən bu günədək sakinlərin əsas narazılığı sahəsi az olan evlərə verilən kompensasiya ilə bağlıdır.**

Belə ki, ərazidə yerləşən bütün evlərin kvadratmetrinə 1500 manat kompensasiya verilməsi nəzərdə tutulub. Lakin 15-20 kvadratmetr sahəsi olan mənzillərin sakinləri bu məbləğlə yeni ev ala bilmədiklərindən narazılığını bildirirlər və buna görə də evlərini tərk etmirlər.

Xatırladaq ki, "Sovetski"də söküntü işləri başlamamışdan əvvəl - hələ sakinlərə xəbərdarlıq edilərkən bir neçə dəfə etiraz aksiyaları keçirilmişdi. Baş nazirin müavini Abid Şərifov və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov sakinləri əmin etdi ki, kompensasiya ilə razılaşmayan heç bir sakin evindən çıxarılmayacaq. Söküntü aparılan ərazidə isə park salınacağı deyilib.

Lakin əksər sakinlərə müxtəlif yollarla təzyiqlər edilir və onların evlərindən çıxarılmasına çalışılır. Bəzən söküntü işləri aparılarkən bilərəkdən digər mənzillərə də zərər vurulur, evini tərk etməyənlərin qaz, işıq və su xətləri kəsilir. Xarabalığa çevrilən "Sovetski"də bəzi sakinlər məcburiyyət qarşısında qalıb evlərini boşaldıblar.

Kiçik sahəli evlərin sakinlərinin yeni mənzillərlə təmin edilməsi istiqamətində işlərin icra olunduğu da deyilir. Məlumata görə, artıq Nərimanov rayonu ərazisində 9 mərtəbəli, 2 bloklu tamamilə rekonstruksiya olunmuş binada 2 otaqlı 104 mənzil hazırlanır və həmin sakinlər oraya köçürüləcək.

Xatırladaq ki, Bakı şəhərinin Baş Planının icrasının 2-ci mərhələsinin başa çatdırılması və yolların çəkilməsinə başlanması məqsədilə Nazirlər Kabinetinin 11 noyabr 2015-ci il tarixli 358 nömrəli qərarı var. Bu qərarla torpağın alınmasını zəruri edən dövlət ehtiyacı və həmin torpağı alan orqan Yasamal Rayon İcra Hakimiyyəti müəyyənləşdirilib. Bu qərardan sonra satınalma işləri "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Qanuna uyğun olaraq həyata keçirilir.

Nazirlər Kabinetinin qərarının icrasının təmin olunması məqsədilə Yasamal Rayon İcra Hakimiyyəti başçısının 12 noyabr 2015-ci il tarixli sərəncamı verilib. Daşınmaz əmlakın alınması qrupu təşkil edilib, elanlar verilib, dövlət əhəmiyyətli tədbirin məqsədi izah olunub və hər bir əmlak sahibinə rəsmi bildirişlər göndərilib. Hazırda könüllü satınalma davam etdirilir, razılıq əldə olunmayan ünvanlarla əlaqədar məhkəməyə iddia ərizələri hazırlanır.

**Hüquqşünas Müzəffər Baxış evini tərk etməyən sakinlərin məhkəməyə verilməsinin qanunsuz olduğunu deyir. Onun sözlərinə görə, "Sovetski" ərazisinin dövlət ehtiyatları üçün alınması haqda deyilənlər doğru deyil:** ""Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Qanun var. Bundan istifadə edərək insanları təsir altına salırlar. Könüllü şəkildə çıxmayanları məhkəməyə verirlər. Əslində həmin yerlər dövlət ehtiyacları üçün alınmır. Həmin ərazidə park salınacağı deyilir. Park salınması isə dövlət ehtiyaclarının təsnifatında nəzərdə tutulmayıb. Dövlət ehtiyacları üçün kommunikasiya xətlərinin çəkilməsi, yolların salınması və ya dövlətin təhlükəsizliyi ilə bağlı hallar ola bilər. Bu hərəkətlər sırf qanunsuzdur. Tam məsuliyyətimlə bildirirəm ki, Azərbaycanda müstəqil məhkəmə hakimiyyəti olmadığından həmin şəxsləri məhkəməyə verəcəklər, qətnamələr çıxarılacaq. O insanları məcburi şəkildə evlərindən çıxaracaqlar. Azərbaycan hüquqa söykənən ölkə deyil. Azərbaycan qanunlarla deyil, verilmiş göstərişlərlə idarə olunur. Məhkəmələr də verilən sifarişləri icra edəcək və evlər zorla söküləcək".










Qeyd edək ki, söküntü ərazisinə Azərbaycan prospekti, Nəriman Nərimanov prospekti, Əlibəy Hüseynzadə və Tolstoy küçələri, habelə Nəriman Nərimanov, İnşaatçılar prospektləri və İsmayıl Qutqaşınlı küçəsi, Qurban Xəlilov və Bəhram Ağayev küçələri əhatəsində yerləşən ərazidə, Bəhram Ağayev küçəsi ilə Landau küçəsinin kəsişməsindən İsmayıl Qutqaşınlı küçəsini kəsməklə Qurban Xəlilov küçəsi də daxil olmaqla Mikayıl Müşviq küçəsi istiqamətindəki ərazidə yerləşən bir sıra yaşayış və qeyri-yaşayış sahələri daxildir.

❑ **İ.MURADOV**

# İntiqamını gözləyən Xocalının 24-cü ili









## Xocalı soyqırımını törədən ermənilər gec-tez məhkəmə qarşısında cavab verməli olacaqlar

**Bu gün Xocalı soyqırımının 24-cü ili tamam olur. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini zəbt etdilər. Hücumdan əvvəl, fevralın 25-i axşam çağından şəhər toplardan və ağır zirehli texnikadan şiddətli atəşə tutulmağa başlayıb. Nəticədə şəhərdə yanğınlar baş vermiş və fevralın 26-sı səhər saat 5 radələrində şəhər tam alova bürünmüşdü.**

Belə bir vəziyyətdə erməni əhatəsində olan şəhərdə qalmış təqribən 2500 nəfər əhali yaxınlıqdakı azərbaycanlılar məskunlaşmış Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etməyə məcbur olub. Ancaq bu niyyət baş tutmadı. Şəhəri yerlə-yeksan etmiş erməni silahlı dəstələri və motoatıcı alayın hərbiçiləri dinc əhaliyə divan tutdular.

Bu qırğının nəticəsində 613 nəfər həlak olub. Onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri qocadır. Faciə nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini itirib, 130 uşaq valideynlərindən birini itirib. 487 nəfər yaralanıb, 150 nəfər itkin düşüb.

Erməni silahlı dəstələrinin Xocalıya hücumunu şəhərin coğrafi mövqeyi şərtləndirirdi. 7000 əhalisi olan Xocalı Xankəndindən 10 km cənub-şərqdə, Qarabağ dağının silsiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə aeroport da Xocalıdadır. Xocalı əhalinin tarixən məskunlaşdığı yerdir və qədim tarixi abidələr indiyə qədər qalmaqdadır.

Milli Məclis hər il fevralın 26-nı "Xocalı soyqırımı günü" elan edib. Hər il fevralın 26-da saat 17.00-da Azərbaycan xalqı Xocalı soyqırımı qurbanlarının xatirəsini 1 dəqiqəlik sükutla yad edir.

Doğma yurdlarında didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, Ermənistanın Azərbaycana qarşı təcavüzünün dəf edilməsi, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi ümidi ilə yaşayırlar. Onlar dünya xalqlarına, dövlətlərinə, beynəlxalq təşkilatlara haqq-ədaləti və həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş terrorizm, etnik təmizləmə faktlarını pisləmək barədə müraciətlər edirlər.

Xocalı soyqırımının günahkarları, təşkilatçıları və icraçıları layiqli cəzalarına çatmalıdırlar. Cinayət cəzasız qala bilməz. Təəssüf ki, XX əsrdə genosid və etnik təmizləmə hadisələri baş vermiş tarixi səhifələr olmuşdur. Xocalı faciəsi onların sırasında ən dəhşətlilərinə aiddir. Bu hadisələrdə hər hansı şəkildə iştirakı olmuş ermənilər vaxt gələcək ki, məhkəmə qarşısında cavab verməli olacaqlar.

**Heç nə unudulmur, heç nə yaddan çıxmır!**

❑ **Xəbər xidməti**



YENİ MÜSAVAT
N 45 (6366) 26 fevral 2016




## Nazir Bakı Şəhər Baş Polis İdarəsində əməliyyat müşavirəsi keçirib

**Bakı Şəhər Baş Polis İdarəsində paytaxtın polis orqanlarının sahə rəislərinin və inspektorlarının cinayətlərin profilaktikasında roluna və qarşıda duran vəzifələrə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib. Virtualaz.org Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, tədbiri giriş sözü ilə açan daxili işlər naziri, general-polkovnik Ramil Usubov toplantının məqsədi barədə məlumat verərək polis sahə inspektorları institutunun işinin düzgün qurulmasının müstəsna əhəmiyyət kəsb etdiyini, onların xidməti fəaliyyətinin təşkilinin və təkmilləşməsinin nazirliyin rəhbərliyinin daim diqqət mərkəzində olduğunu xatırladıb.**

O bildirib ki, son 10 ilə yaxın müddətdə sahə inspektorlarının cinayətlərin profilaktikası, vətəndaş cəmiyyəti ilə əlaqələrinin möhkəmləndirilməsi, əhaliyə daha yaxın olması, insan hüquq və azadlıqlarının qorunması sahəsində fəaliyyətinin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi məqsədilə mühüm tədbirlər görülüb, zəruri funksional və struktur dəyişiklikləri həyata keçirilib.

Qeyd olunub ki, ölkədə aparılan hüquqi islahatlar, qəbul edilən yeni qanunlar və digər normativ hüquqi aktlar çərçivəsində polis sahə rəislərinin və inspektorlarının əsas vəzifə və funksiyalarını müəyyən edən bir sıra normativ hüquqi aktlar təsdiq edilərək icraya yönəldilib.

Gündəlikdəki məsələ ilə bağlı daxili işlər nazirinin müavini - Baş Təşkilat- İnspeksiya İdarəsinin rəisi, polis general-leytenantı Fazil Quliyev geniş məruzə ilə çıxış edib, cinayətkarlığın profilaktikasında və ictimai asayişin təminində görülmüş işlərdən, xidməti fəaliyyətdə mövcud olan nöqsanlardan və qarşıda duran vəzifələrdən danışıb.

Müşavirəyə yekun vuran daxili işlər naziri konkret tapşırıq və tövsiyələrini verib, sabitliyin qorunub saxlanılmasının, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinin, xidməti fəaliyyətin, o cümlədən sosial funksiyaların icrasının yeni keyfiyyət səviyyəsinə yüksəldilməsinin, vətəndaş məmnunluğunun təmin olunmasının başlıca məqsəd olduğunu diqqətə çatdırıb.

Nazir hazırlanan cinayətlərin qarşısının vaxtında alınması üçün polis əməkdaşlarının, o cümlədən sahə rəislərinin və inspektorların zəruri hüquqi biliklərə, geniş dünyagörüşə, yeni texnologiyalarla iş bacarığına, bütövlükdə yüksək professionallığa malik olmalarının vacibliyini vurğulayıb, qarşıda duran vəzifələri müəyyənləşdirib və bu məsələlərə hər bir ərazi polis orqanında xüsusi diqqət yetirilməsini tələb edib.



## AŞ PA prezidenti Bakıya gəlir

**Avropa Şurası Parlament Assambleyasının prezidenti Pedro Aqramunt 29 fevral - 2 mart tarixlərində Azərbaycanda səfərdə olacaq. Avropa Şurasının Bakı nümayəndəliyindən "Turan"a bildirilib ki, səfər çərçivəsində Aqramuntun ölkənin siyasi rəhbərliyi, deputatlar və vətəndaş cəmiyyətinin təmsilçiləri ilə görüşləri gözlənilir.**

# Dövlət müəssisələrinin özəlləşdirilməsi niyə yubanır?

**"Büdcədə 1,6 milyard kəsir var. Bunun 100 milyon manatının özəlləşdirmə hesabına bağlanması nəzərdə tutulur". Bu sözləri deputat Qüdrət Həsənquliyev 2016-cı il dövlət büdcəsində dəyişikliklər layihəsinin müzakirəsi zamanı bildirib. O, hökuməti özəlləşdirmə prosesini genişləndirməklə büdcədə gəlirlərini artırmağa çağırıb.**

**Q. Həsənquliyev bildirib ki, prezident artıq bu məsələni hökumət qarşısında ciddi şəkildə qoyub:** "Dəfələrlə parlamentdə bu məsələ millət vəkilləri tərəfindən hökumət qarşısında qaldırılıb. Hesablama Palatasının hazırladığı rəydən bəlli olur ki, indi büdcəyə özəlləşdirmədən cəmi 100 milyon manatlıq vəsaitin daxil olması nəzərdə tutulur. Hökumətin təqdim etdiyi layihədə bu görünmür. Büdcədə 1,6 milyard kəsir var. Bunun 100 milyon manatının özəlləşdirmə hesabına bağlanması nəzərdə tutulur. Mən dəfələrlə demişəm ki, son illər ərzində ölkədə xeyli sayda idman kompleksləri, olimpiya kompleksləri, səhiyyə obyektləri tikilib. Bir neçə ildən sonra hökumət bu obyektlərin saxlanması üçün vəsait tapmayacaq. Nə qədər ki, dağılıb getmir, nə qədər ki, dəyərini itirməyib, bunları özəlləşdirmək lazımdır".

Deputat həmçinin tibb və təhsil müəssisələrinin, xüsusən də universitetlərin, eləcə də hava limanlarının özəlləşdirilməyə çıxarılmasını təklif edib.

Burada isə cəmiyyəti maraqlandıran əsas məqam odur ki, hökumət nə üçün iri müəssisələrin özəlləşdirilməsindən çəkinir?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Vüqar Bayramov dedi ki, hazırda daha geniş miqyasda özəlləşdirmənin aparılmasına ehtiyac var:** "O baxımdan Azərbaycanda iri məbləğdə dövlət mülkiyyətinin özəlləşdirilməyə çıxarılması gözlənilirdi. Son məlumatlar isə göstərir ki, özəlləşdirməyə çıxarılan mülkiyyətin həcmi o qədər də çox deyil. Özəlləşdirmə müvafiq sektora investisiya yatırılması və xarici sərmayəçilərin cəlb edilməsi üçün imkan yaradır. Ölkənin hazırkı iqtisadi durumunu nəzərə alsaq, bu, Azərbaycanın maraqlarına da uyğundur. Özəlləşdirmə həmin sektorda daha çevik qərarların verilməsinə səbəb olacaq. Çünki büdcəyə neft gəlirləri azalıb".

**Ekspert düşünür ki, özəlləşdirmə həm də dövlət tərəfindən bu sahəyə ayrılan vəsaitlərə qənaət edilməsinə imkan yaradır:** "Elə sektorlar var ki, həmin sektorlara dövlət büdcəsindən kifayət qədər vəsait ayrılır. Məsələn, "Azəristiliktəchizat" ASC-yə hər il dövlət büdcəsindən vəsait ayrılmasına baxmayaraq, binaların qış mövsümündə istiliklə təchizatında problemlər var. Bu müəssisənin özəlləşdirilməsi dövlətin həmin sahəyə ayırdığı vəsaitlərin həcmini kəskin şəkildə azaldır, eyni zamanda həmin sahənin daha səmərəli və daha şəffaf fəaliyyət göstərməsinə səbəb olur. Postneft dövründə iqtisadiyyatın sağlamlaşdırılması üçün istifadə ediləcək əsas metodlardan biri də məhz dövlət mülkiyyətində olan müəssisələrin özəlləşdirilməsidir".



**Vüqar Bayramov:**
"Hansı müəssisələrin özəlləşdirilməyə çıxarılması ilə bağlı, görünür, müəyyən fikir ayrılıqları var"



**Vahid Əhmədov:**
"Bizi narahat edən əsas məqam odur ki, Azərbaycanda bu günə qədər özəlləşdirmə prosesi kortəbii aparılıb"

**Prosesin gecikdiyini deyən Vüqar Bayramov özəlləşdirmə ilə bağlı proqramın qəbul edilməməsinin səbəblərini belə izah etdi:** "Hansı müəssisələrin özəlləşdirilməyə çıxarılması ilə bağlı, görünür, müəyyən fikir ayrılıqları var. Hökumət konkret hansı sahədə, hansı müəssisələrin özəlləşdirilməsi ilə bağlı tam qərar verə bilməyib. Çünki özəlləşdirilməyə çıxarılacaq əsas müəssisələr kommunal və nəqliyyat sektorundandır. Bir müddət öncə müəyyən edilmişdi ki, geniş miqyasda özəlləşdirmə aparılacaq, ancaq hansı müəssisələrin özəlləşdirilməsi ilə bağlı razılığın əldə edilməməsi prosesin yubanmasına gətirib çıxarır. Bu, büdcədən ayırmaların azaldılması məqsədi daşısa da, mən hesab etmirəm ki, indiki məqamda səhiyyə və təhsil müəssisələrinin özəlləşdirilməsinə ehtiyac var. Məncə, dolayı metodlardan da istifadə etmək mümkündür. Xüsusən təhsil müəssisələrinə, səhiyyə obyektlərinə müəyyən maliyyə muxtariyyəti vermək olar ki, onlar öz xərclərini qarşılaya bilsinlər. Lakin indiki məqamda səhiyyə və təhsil müəssisələrinin özəlləşdirilməsi arzuolunan deyil".

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov isə bu prosesin "ASAN xidmət"ə verilməsini təklif etdi:** "Milli Məclisdə mən də özəlləşdirmə ilə bağlı məsələ qaldırdım ki, bu yolla büdcəyə daxil olan vəsaitlərin miqdarı həddindən artıq aşağıdır. Mən ümumiyyətlə, təklif edərdim ki, özəlləşdirmə ilə bağlı məsələni biz tamamilə "ASAN xidmət"ə verək. Çünki orada torpağın icarəsi və mülkiyyətin icarəsindən gələn vəsait biz qane etmir. Bu məbləğ cəmi 13 milyon manatdır. Ancaq söhbət yüz milyonlardan gedir. İkincisi, özəlləşdirmə ilə bağlı bir rəqəm səsləndirildi, ancaq o rəqəm konkret deyil. 100 milyon manat konkret bir rəqəm deyil, çox az bir məbləğdir. Sadəcə, Hesablama Palatasının hesabatında göstərilirdi ki, özəlləşdirmədən dövlət büdcəsinə yüz milyon manat daxil olacaq. Ancaq hələ ki o proqram yoxdur. Bu məbləğ 100 milyon da ola bilər, 500 milyon da ola bilər, ondan artıq da. Proqram çıxandan sonra bu məsələyə baxmaq lazımdır. Ancaq bu özəlləşdirmə prosesini də şəffaflaşdırmaq lazımdır. Bizi narahat edən əsas məqam odur ki, Azərbaycanda bu günə qədər özəlləşdirmə prosesi kortəbii aparılıb. Bundan əlavə, özəlləşdirilən müəssisələrin də 80-90 faizi işləmir, əksəriyyətinin ağzına qıfıl vurulub. Xüsusən emal müəssisələri, istehsal müəssisələri pis vəziyyətdədir. Bu baxımdan özəlləşdirmə prosesi də problemli vəziyyətdədir".

❑ **Nərgiz LİFTİYEVA**

# Kaxa Kaladze yenə gəlir

**Gürcüstanın baş nazirinin müavini, energetika naziri Kaxa Kaladzenin Bakıya fevralın 29-da planlaşdırılan səfəri çərçivəsində iki ölkə qaz idxalı ilə bağlı əməkdaşlığın yeni prinsiplərinə dair razılığa gələ bilər.**

Virtualaz.org "Qruziya Online" saytına istinadən xəbərə verir ki, bunu Gürcüstanın energetika nazirinin müavini Mariam Valişvili bildirib.

Nazir müavini qeyd edib ki, K.Kaladze Bakıda Cənub Qaz Dəhlizi üzrə Məşvərət Şurasının iclasında iştirak edəcək.

Onun sözlərinə görə, Azərbaycanla müqavilənin müəyyən şərtlərinin yenidən nəzərdən keçirilməsi üçün işlər aparılır: **"Bura qiymət, qiymət siyasəti, nəqlin həcmi, eyni zamanda texniki detallar daxildir. İşçi qrupları optimallaşdırma ilə bağlı iş aparır və artıq müəyyən nəticələr var. Ümid edirik ki, energetika nazirinin Bakıya səfəri çərçivəsində tərəflər gələcəkdə işlərin hansı iqsiqamətdə davam etdirilməsi prinsipləri üzrə razılığa gəlinəcək".**



**M.Valişvili həmçinin qeyd edib ki, Ermənistana nəql olunan Rusiya qazının Gürcüstan ərazisindən tranzitinə görə ödənişin forması ilə bağlı "Qazprom" şirkəti ilə danışıqlar yekun nəticə əldə olunana qədər davam edəcək:** "Biz dünya təcrübəsində də olan pulla kompensasiyaya qarşı deyilik. Amma bu, onun hansı məbləğdə olmasından asılıdır".

# Obama-Əliyev görüşü üçün hazırlıqlar başlayıb




## Vaşinqtonda iqtidarla şok müzakirələr- masada nələr var?

Qərb diplomatik mənbələrindən "Yeni Müsavata"a sızan xəbərə görə, artıq bir neçə həftədir ki, Amerika və Azərbaycan nümayəndələri mütəmadi görüşlər keçirir; Vaşinqton həbsdə olan siyasi məhbusların azad olunmasını, Milli Demokratiya və Amerika Respublikaçılar institutlarının Bakıda fəaliyyətinin bərpa edilməsini istəyir; bəs rəsmi Bakının şərtləri nədir?

**ABŞ prezidenti Barak Obamanın Azərbaycanın dövlət başçısı İlham Əliyevi apreldə Nyu-Yorkda keçiriləcək nüvə sammitinə dəvət etməsindən sonra iki ölkə münasibətlərində yeni mərhələnin başlandığını təsdiq edən daha bir sensasion məlumat almışıq.**

Bakıdakı mötəbər Qərb diplomatik mənbələrindən "Yeni Müsavata"a sızan xəbərə görə, artıq bir neçə həftədir ki, Amerika və Azərbaycan nümayəndələri mütəmadi olaraq Vaşinqtonda görüşlər keçirir. Mənbə bildirib ki, müzakirələrdə hər iki ölkənin qarşılıqlı istəkləri müzakirə olunur.

Amerika tərəfinin hazırladığı paketdə bir neçə məsələ açıq şəkildə öz əksini tapib. Məlumatda iddia olunur ki, Vaşinqton həbsdə olan siyasi məhbusların azad olunmasını, o cümlədən Milli Demokratiya və Amerika Respublikaçılar institutlarının Bakıda fəaliyyətinin bərpa edilməsini istəyir. Qaynağımızın daha bir sensasion məlumatı budur ki, ABŞ Xəzərdə bərabər səkildə təhlükəsizliyin qorunması, Əfqanıstana hərbi təyinatlı yüklərin aparılması üçün verilən dəstəyin artırılması niyyətindədir. O cümlədən Amerika hərbi kontingentinin sivil şəxslərdən olan məhdud qrupunun Azərbaycana yerləsdirilməsi də müzakirə masasındadır. Azərbaycanın da öz şərtləri var. Bu, qondarma Qarabağ rejiminə maddi dəstəyin dayandırılmasından tutmuş, bəzi anti-Azərbaycan dairələrinin Amerikada fəaliyyətini nəzarətə almağa qədər, genişi bir spektri əhatə edir.

**"Azərbaycan tərəfi hələ ki bu təklifləri müzakirə edir. Amma müzakirə üçün vaxt məhdudiyyəti də var. Çünki Amerika ölkə başçının Nyu-Yorka səfərinədək qəti qərar verməsini gözləyir"**, - deyə, mənbə söyləyib. İddiada deyilir ki, əgər iki prezident arasında özəl görüş olmasa, o anlama gələcək ki, tərəflər razılıq əldə edə bilməyib.

Diplomatik qaynaq əlavə edib ki, hazırda münasibətlərdəki normallaşma çox kövrəkdir, Vaşinqtondakı Azərbaycan hakimiyyəti lobbiçiləri ilə "anti-Azərbaycan" qrupu "döyüş ərəfəsindədir". Belə ki, Dövlət Departamenti və ona tabe olan İnsan Haqları və Demokratiya Bürosu, Konqresin bir hissəsi və bəzi beynəlxalq təşkilatlar rəsmi Bakıya qarşı Kristofer Smitin hazırladığı sanksiya layihəsini dəstəkləyirlər. Bunun reallaşması üçün hətta Ağ Ev basda olmaqla, Konqresə təzyiq edirlər. Lakin Pentaqon və Amerika Enerji Nazirliyi sanksiya qərarının qəbul edilməsinə qarşıdırlar, bunun yanlış olduğunu və basda Ağ Ev olmaqla, Konqresi də belə bu qanun layihəsinin qəbulu fikrindən daşındırmağa çalışırlar.

Qeyd edək ki, ABŞ dövlət katibinin köməkçisi Viktoriya Nulandın Bakıya ötən il etdiyi səfərdə Azərbaycan-Amerika birgə komissiyası ilə bağlı razılaşmaya əldə olunub. Ehtimal edilir ki, danışıqlar da məhz həmin birgə komissiya formatında aparılır. Bir müddət əvvəl ABŞ səfiri Robert Sekuta demokratiya sahəsində yaradılacaq komissiya barəsində danışarkən bu istiqamətdə irəliləyiş olduğunu təsdiqləmişdi: "Bu kimi mühüm olan böyük təşəbbüslərə kifayət qədər hazırlıq işləri tələb olunur və hazırda bu məsələdə inkişaf var" deyə, səfir vurğulamışdı.

Yada salaq ki, 2014-cü ilin əvvəlindən Bakıda ofisi bağlanan əsas təşkilatlar məhz Amerika təşkilatlarıdır. Bu beynəlxalq təşkilatlar Bakıdan gedəndən sonra insan hüquqları, demokratiyaya ilə bağlı məsələlərin layihələşdirilməsi və maliyyələşdirilməsi mümkünsüz olub. Bu isə ABŞ-ın Azərbaycandakı mövqelərinə ciddi təsir edib, vətəndaş cəmiyyəti ilə əlaqələr qırılıb. Bu səbəbdən də ABŞ-ın bu məsələdə israr etməsi təəccüblü deyil.

Siyasi məhbuslar məsələsi də rəsmi Bakı ilə Vaşinqton arasında soyuqluq yaratmış ən ciddi səbəblərdən biridir. İqtidar ötən əfv fərmanında siyasi məhbus kateqoriyasına aid edilənlərin heç birini azad etmədi.

Neftin qiymətinin kəskin düşməsi ilə ölkədəki iqtisadi-maliyyə şərtlərin ağırlaşması, Rusiyanın Ermənistanı silahlandıraraq bölgədə bilinməyən məkrli hərbi planlar hazırlaması Azərbaycan hakimiyyətinə Amerika ilə münasibətlərə yeni düzən verməsini zəruri edir. Amerika Konqresində müzakirəsi gözlənilən sanksiya layihəsi də rəsmi Bakı üçün arzuedilməzdir. Bu səbəbdən mümkündür ki, Vaşinqtondakı danışıqlar sonda anlaşma ilə nəticələnsin.

❑ **"Yeni Müsavat"**

# Azərbaycanın notası, Putinin Bakıya qəfil zəngi...

Kremllə münasibətlərdə maraqlı gəlişmə; Azərbaycanın Ermənistanla bağlı Moskvaya verdiyi etiraz notası ilə dəyişən ritorikanın və Türkiyəyə reverans fonunda şimaldan gələn zəngin pərdəarxası...

**Fevralın 25-də Rusiya prezidenti Vladimir Putin Azərbaycan prezidenti İlham Əliyevə zəng vurub. Kremlin rəsmi saytının məlumatına görə, iki ölkənin liderləri telefon danışığı zamanı Rusiya və ABŞ arasında Suriyada döyüş əməliyyatlarının dayandırılmasına dair birgə bəyanatın yerinə yetirilməsinin mühümlüyünü qeyd ediblər.**



Açıqlamada daha sonra bildirilir ki, prezidentlər Putin və Əliyev iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın bir sıra aktual məsələlərini, o cümlədən beynəlxalq gündəmi müzakirə ediblər. "Liderlər Suriya nizamlanmasına dair məsələlər haqda fikir mübadiləsi də aparıblar, ABŞ və Rusiya tərəfindən Suriyada atəşin dayandırılmasına dair qəbul edilmiş birgə bəyanatın yerinə yetirilməsinin mühümlüyünü qeyd ediblər" - məlumatda qeyd edilir.

Kremldən Bakıya ali səviyyədə edilən zəng həqiqətən də bu gün gecə saat 00:00-dan Suriyada qüvvəyə minəcək atəşkəslə bağlı ola bilərdi, necə ki, rəsmi açıqlamada məhz belə deyilir. Çünki hər necə olmasa, Azərbaycan da bölgə yaxınlığında yer alan əhəmiyyətli müsəlman dövlət kimi Suriya böhranına biganə deyil və hətta son vaxtlar böhrana cəlb olunmuş kimi görünür.

Təsadüfi deyil ki, Azərbaycan İslam hərbi koalisiyasına qoşulmaq üçün Səudiyyə Ərəbistanından dəvət alıb. Xarici işlər naziri Elmar Məmmədyarov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə ötən həftə Bakıda keçirdiyi görüşdə koalisiyaya üzvlüyü istisna etməmiş, bununla da rəsmi Bakı adından Türkiyəyə qiymətli reverans eləmişdi. İslam koalisiyası isə məlumdur ki, bilavasitə İran və Rusiya əleyhinə yaradılıb və Moskva da bundan narahatdır. İstisna deyil ki, telefon danışığı zamanı Kremlin bu narahatlığı da diqqətdə saxlanılıb.

Ancaq ən maraqlısı odur ki, Putinuin zəngi Bakının Rusiyaya verdiyi etiraz notasından bir gün sonraya təsadüf edir. Notada Ermənistana 200 milyon dollar güzəştli kredit həcmində müasir silah-sursat satılmasına etiraz bildirilirdi. Bəzi analitiklərə görə əslində Moskva işğalçı ölkəyə 200 milyon dollar adı ilə 1 milyard dollarlıq silah verməyə hazırlaşır. Bütün bunların fonunda, üstəlik, YAP icra katibi, baş nazirin müavini Əli Əhmədov Rusiyanı sərt şəkildə ikili standart yanaşmada suçlamışdı.

Rusiya XİN-dən notaya cavab əvəzinə isə prezident Putindən Bakıya telefon zəngi gəldi. Ehtimal eləmək olar ki, zəngi labüd edən həm də son günlər Bakının Moskvaya münasibətdə qəfildən sərtləşən ritorikası, paralel surətdə onun Türkiyəyə artan reveranslarıdır. Türkiyə isə Suriya böhranının həllində açar ölkələrdən biri olaraq qalır.

Yeri gəlmişkən, belə görünür, Kreml və Vaşinqton Ankaranın başı üzərindən Suriyada atəşkəsə (sülhə) nail olmaq istəyir. Bu isə Türkiyəni haqlı olaraq qane eləmir. Elə dünən - Pitin Əliyevə telefon açdığı gün baş nazir Əhməd Davudoğlu məsələ ilə bağlı yetərincə sərt bəyanat verərək, Suriyadakı atəşkəsin Türkiyəyə aidiyyətinin olmadığını bildirib. ***Sitat:*** **"Atəşkəs Suriyada savaşan tərəflər üçün keçərlidir. Türkiyə istənilən tərəfdən təhdid edilərsə, dövlətimizin təhlükəsizliyi pozularsa, bu atəşkəs bizim qarşımızı ala bilməz. YPG və PYD (terrorçu PKK-nın ABŞ və Rusiyanın dəstəklədiyi qolları-red.) ünsürlərinə açıq-aşkar bildirirəm ki, "atəşkəsdir" deyib Türkiyəyə qarşı fəaliyyətlərini davam etdirməsinlər. Əməllərinə diqqət etsinlər".**

Bu xüsusda Rusiya lideri azərbaycanlı həmkarından atəşkəsə dəstək üçün Türkiyəyə təsir eləmək xahişində də buluna bilərdi. Ən nəhayət, telefon zəngi İlham Əliyevin təzəcə başa çatan və yetərincə uğurlu sayılan İran səfərindən iki gün sonraya təsadüf eləməsi ilə maraq doğurur.

Bəllidir ki, həmin səfər çərçivəsində iki ölkə arasında iqtisadi-ticari, energetik-nəqliyyat, mədəni-humanitar sahələr üzrə 11 sənəd imzalanıb. Onların arasında Xəzər dənizinin neft-qaz ehtiyatlarının birgə istismarı və Şimal-Cənub nəqliyyat dəhlizinin işə salınması ilə bağlı imzalanan protokollar xüsusilə önəmli hesab edilir.

Bu sənədlərin əksərinin Rusiyaya bilavasitə dəxli var: həm müsbət planda (məsələn, Şimal-Cənub nəqliyyat dəhlizi), həm də neqativ anlamda - hüquqi statusu hələlik dəqiqləşməyən Xəzərdə mineral ehtiyatların müştərək istismarına dair Azərbaycan-İran razılaşması kimi...

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 45 (6366) 26 fevral 2016



# Xocalı şahidi olan ukraynalı pilot o dəhşətdən danışdı

## Leonid Markoviç: "Beş yüz metr məsafəyə enərkən, gördük ki, ermənilər yaralıları da güllələyir"

**Fevralın 25-də ukraynalı pilot Leonid Markoviç Bakıda mətbuat konfransı keçirib. Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun dəvəti ilə Bakıya gələn pilot Xocalı qətliamının ilk şahididir. O, azərbaycanlı jurnalistləri bu vəhşiliyin törədildiyi yerə helikopterlə aparıb.**

Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun rəhbəri Hikmət Cavadov bildirib ki, iki il öncə pilot Leonid Markoviçlə bağlı məlumat alıblar: "Bir müddətlik araşdırmadan sonra Xocalı barədə film çəkməyi qərara aldıq".

Leonid Markoviç isə bildirib ki, 1989-cu ildən 1992-ci ilə qədər Gəncədə SSRİ qoşunlarının tərkibində xidmət edib və helikopter komandiri olub. Onun sözlərinə görə,1992-ci il fevralın 27-də Gəncəyə qayıdarkən Xocalının şərqindən iki kilometr məsafədə dağın ətəyində uçarkən rəngarəng paltar müşahidə ediblər: "Beş yüz metr məsafəyə enərkən, gördük ki, ermənilər yaralıları da güllələyir. Ermənilər Azərbaycan vertolyotunu görüb atəşə tutmağa başladılar. Biz qayıtdıq və ölkə rəhbərliyinə müraciət etdik. Bundan sonra jurnalistləri oraya çəkiliş üçün aparmağımızı istədilər. Jurnalistləri apararkən jurnalist Çingiz Mustafayevi gördük. Onların cəmi beş dəqiqə vaxtı vardı ki, çəkiliş etsinlər. Gördük ki, artıq ermənilər bizi görüblər və atəş edirlər. Beş dəqiqə ərzində çəkiliş etdik. Dünya bu qətliamı bu çəkilişlərdən sonra bilib, soyqırımdan xəbər tutub".

**Pilotun sözlərinə görə, o zaman gördükləri barədə mətbuata müsahibə verib və bu, geniş müzakirələrə səbəb olub:** "Jurnalistlər hadisə yerinə düşərkən ərazini tam çəkə bilməyiblər. On-on beş dəqiqə çəkiliş apara bildik. Helikopter yerə enə bilməmişdi. Hər zaman hazır idi ki, ermənilər gələndə çəkiliş qrupunu götürüb gedə bilsinlər. Çəkiliş qrupu aşağı düşəndə o dərəcədə şok yaşadı ki, iki-üç dəqiqə ərzində çəkiliş edə bilmədilər. Onları tələsdirdik, çox az kadrlar çəkdilər. Meyitlər bir-birindən çox aralı idi. Jurnalistlər nəyi çatdırdı onu çəkdilər. Ancaq ərazi tam halda yuxarıdan çəkilib. Bizimlə gedən bir polis kapitanı uşaqların arasında öz oğlunu tapdı. Oğlu öldürülmüşdü. O, uşağın meyitini götürüb helikopter tərəfə gəlirdi, ermənilər bizi görmüşdü, biz uçmalı idik. O, oğlunu helikopterə yerləşdirdi, özünün isə əlləri aşağı düşdü, helikopterə minə bilmirdi. Deyəsən, ağlını itirmişdi. Biz onu da güclə götürüb uçduq".

Ukraynalı pilotun iştirakı ilə jurnalistlərin Xocalıya getməsi və soyqırımı çəkməsi barədə film də ərsəyə gəlib. Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu tərəfindən çəkilən "Cəhənnəmi görmüş pilot" filminin təqdimatı fevralın 26-da olacaq.

❑ **Röya RƏFİYEVA**
❑ **Fotolar müəllifindir**

**Prezident İlham Əliyevin İran səfərində Suriya ilə bağlı səsləndirdiyi fikirlər dünya mətbuatının əsas gündəminə çevrilib. Azərbaycan ictimaiyyəti arasında da ölkə başçısının sözləri geniş müzakirələrə səbəb olub.**

# Azərbaycan prezidenti Əsədə, yoxsa sülhə "hə" deyib?

Prezident iranlı həmkarı Həsən Ruhani ilə görüşündə Suriya məsələsində həmfikir olduqlarını söyləyib: "Biz şadıq ki, ABŞ və Rusiya gələn həftə sonu reallaşacaq hərbi əməliyyatların dayandırılması ilə bağlı razılığa gəliblər. Biz Suriya böhranı ilə bağlı daha əvvəl də vurğulamışdıq ki, Suriya xalqı öz gələcəyi ilə bağlı qərar qəbul etməlidir. İran və Azərbaycan bu məsələdə ortaq mövqeyə sahibdir".

İ.Əliyevin bu fikirlərində bəzi müəmmalı məqamlar ortaya çıxıb. Belə fikirlər səslənir ki, ölkə başçısı Suriya məsələsində ABŞ və Rusiya arasında atəşkəs əldə olduğu üçün bu açıqlamanı verib. Lakin onun çıxışından başqa cür nəticə çıxaranlar, açıqlamanı başqa istiqamətə yozanlar da var. Amma görünən odur ki, çıxış mətnində "biz Suriya məsələsində İranın yanındayıq" kimi fikirlər yoxdur. Ölkə başçısı dövlətinin sülhün yanında olduğunu bildirib.

**Ləğv edilmiş MTN-in keçmiş zabiti, polkovnik İlham İsmayıl məsələyə iki aspektdən yanaşmağın doğru olduğunu söylədi:** "Burada həm Azərbaycanın maraqları gözlənilə, həm də İranın xətrinə dəyməmək siyasəti aparıla bilər. Dağlıq Qarabağ kimi problemimiz olduğuna görə, hər hansı bir ölkənin ərazi bütövlüyü vacib məsələ olanda, biz mütləq o ərazi bütövlüyünü dəstəkləməliyik. Çünki özümüz buna məruz qalmış dövlətik. Yeni Suriyanın ərazi bütövlüyünü dəstəkləyirik. İranla bu mövzuda həmfikir olmağı demək mümkündür. Amma bu mesajı verəndən sonra demək lazımdır ki, biz də atəşkəs istəyirik, necə ki, İran da bunu istəyir. Yeni açıqlamaları başqa formaya salmaq olardı. Çünki "biz İranın yanındayıq" deyəndə Türkiyə kimi yaxın dövlətin, eləcə də Qərbin əleyhinə olmuş duruma düşürük. Bu baxımdan diplomatik gediş başqa cür olmalı idi. Necə ki, Araz Əzimovun Suriya məsələsi ilə bağlı dediklərində həqiqət var idi, amma səhv qəbul edildi. Diplomatik tərz var. Çalışmalıyıq ki, digər dövlətlərin maraqlarına toxunan fikirlər səsləndirməyək. Diplomatiyanın əsasını "nə şiş yansın, nə də kabab" məsələsi təşkil edir. Amma təəssüf ki, bu cür olmayanda Qərb səmimiyyətə inanmır. Amma Suriya məsələsində başqa cür mövqe tutmaq mümkün deyil. Çünki Qarabağ problemimiz var".



**İlham İsmayıl:** "Suriya məsələsində başqa cür mövqe tutmaq mümkün deyil"



**Fazil Mustafa:** "Mətndə belə bir ifadə yoxdur"

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa bildirdi ki, prezidentin çıxışında müzakirələrə səbəb olan cümlə yoxdur:** "Mətnlə tanış olanda mən də o cür anlamışdım. Amma mətndə bu ifadənin olmadığını gördüm. O, kontekstdən çıxarılıb. Belə bir ifadə yoxdur. Orada, sadəcə, bildirilib ki, Suriyada atəşkəsin əldə olunması bölgədə sülhün xeyrinədir, biz bu addımları alqışlayırıq. Eyni açıqlamanı Səudiyyə Ərəbistanının rəhbəri də verdi. Onlar da bunu müsbət qarşıladıqlarını bildirdilər. Ona görə də bu məsələdə nəyisə şişirtməyə ehtiyac yoxdur. Mən də mətbuatdan eşitdim ki, Suriya məsələsində İranın mövqeyi dəstəklənib. Amma bu ifadəni mətndə tapmadım. Ona görə də belə məsələlərə şərh verməkdə yerinə düşməz".

❑ **Cavanşir ABBASLI**

# İŞİD-ə qoşulan azərbaycanlıların sayı kəskin azalıb

## Ərəstun Oruclu: "Nə qədər ki, İŞİD pullu idi, meydan oxuyurdu, baş kəsib videolar yayırdı..."

**Son zamanlar həm ölkə mətbuatında, həm də xarici mətbuatda İŞİD terror qruplaşması ilə bağlı xəbərlərin kəskin şəkildə azalması müşahidə olunur. Bəzi ekspertlərin də fikrincə, artıq İŞİD əvvəlki gücünü və cəlbediciliyini itirib. Dünyanın bir çox ölkələrindən İŞİD-in meydan suladığı zamanlarda qruplaşmaya qoşulmaq istəyənlərin sayı yüzlərlə idi. Təşkilatın ilk silahlandığı ərəfələrdə Azərbaycandan da xeyli sayda şəxs İŞİD-ə qoşulmaq üçün İraq və Suriyanın yolunu tutmağa başladı. Əvvəlcə Türkiyəyə gedən azərbaycanlılar oradan terror təşkilatının üzvlərinin köməyi ilə qonşu ölkənin sərhədini keçərək İŞİD sıralarına qoşulurdular.**

Yuxarıda da qeyd etdiyimiz kimi, son zamanlar bu terror qruplaşmasına qoşulmaq üçün gedənlərin sayı kəskin şəkildə azalmağa başlayıb. Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov da bir neçə gün əvvəl mətbuata verdiyi açıqlamada bu məqama diqqət çəkib. F.Ələsgərov görülmüş tədbirlər nəticəsində silahlı münaqişələrdə iştirak etmək məqsədilə ölkədən Suriya və İraqa gedənlərin sayında kəskin azalma müşahidə edildiyini qeyd edib.

Suriya və İraqda silahlı döyüşlərdə iştirak etdikdən sonra Azərbaycana qayıdan 60-dan çox şəxsin Dövlət Təhlükəsizlik Xidməti (DTX) tərəfindən həbs edilərək cinayət məsuliyyətinə cəlb olunduğunu xatırladan F.Ələsgərov bildirib ki, bu cür şəxslərin fəaliyyəti istər cəzaçəkmə müəssisələrində, istərsə də cəzaların çəkib qurtardıqdan sonra hüquq-mühafizə orqanları tərəfindən nəzarətdə saxlanılacaq.

DTX-nin da son məlumatında bildirilir ki, radikal dini qruplaşmalara qoşulan azərbaycanlıların sayında azalma müşahidə olunur və geri qayıdanlar bu əməllərinə görə peşmandırlar. İŞİD-ə qoşulan azərbaycanlıların sayının azalmasına səbəb kimi bir sıra amillər göstərilir.



**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu "Yeni Müsavat"a açıqlamasında bu səbəblərin bəzilərini açıqlayıb:** "Fuad Ələsgərovun və DTX-nin son açıqlamaları reallığı əks etdirir. Həqiqətən də son zamanlar İŞİD-ə qoşulan azərbaycanlıların sayında azalma var. Nə qədər ki, İŞİD pullu idi, meydan oxuyurdu, baş kəsib videolar yayırdı, bununla da müəyyən psixi pozuntuları olanları və yaxud da təsir altına düşə bilənləri, özünü qəhrəman hiss etmək istəyənləri ruhlandırırdı. Onlar da müəyyən yollarla İŞİD-ə tərəfdar yığanların toruna düşürdülər. Onlar müəyyən bir kəsimdir və sayları da məhduddur. Kim gedə bilərdisə, getdi. Azalmanın səbəblərindən biri də budur".

**Politoloqun fikrincə, digər bir səbəb də Türkiyənin İŞİD-ə qarşı dəyişən münasibətidir:** "Bir müddət Türkiyə çalışırdı İŞİD-in hədəfinə gəlməmək üçün onunla açıq konfliktə getməsin. Amma son nəticədə İŞİD özü partlayışlar törətməklə Türkiyəni münaqişəyə çəkdi. Nəzərə alsaq ki, İŞİD-çilərin böyük əksəriyyəti Türkiyə sərhədindən keçirdilər, amma indi onların yolu bağlanıb. Və nəhayət, bununla İŞİD-in uğursuzluqları başladı. Heç kim bomba altında qalıb partlamaq istəmir. Nə qədər ki, istənilən qədər cinayət törədib, məsuliyyətdən kənarda qalmaq üçün təminat var idi, buna güvənib gedənlər oldu. Ancaq sonradan anlayanda ki, ölüm qorxusu var, o zaman aydın olur ki, heç kim həyatından bezməyib. Bütün bu fanatizm və nağıldır. Təcrübədən də dəfələrlə görmüşük ki, özünü fanatik kimi göstərənlər cüzi bir qorxu hiss edən kimi qaçıb gizlənirlər. Mən İŞİD-ə qoşulmanın azalma səbəblərini belə başa düşürəm".

**Azərbaycanlıların zorakılığa meylli olmaması amilinin İŞİD-ə qoşulanların sayına təsir etdiyini düşünənlər də var. Məhz bu amilin azərbaycanlıların İŞİD-ə qoşulmasına əngəl olması iddiasını Ə.Oruclu real hesab etmir.**

**Onun fikrincə, baş kəsməyə meylli olan və ya baş kəsməyə meylli olmayan xalqlar anlayışı yoxdur:** "Zorakılığa meylli olmaq daha çox fərdlərə məxsusdur. Qeyd edək ki, Azərbaycanda bu cür zorakılıq ənənələri heç vaxt olmayıb. Bu, məsələnin bir tərəfidir. Ölkəmizdə insanlar bunu özləri üçün çox çətin təsəvvür edirlər. Bir çoxları da cihad adı ilə İŞİD-ə qoşulurdu. Lakin sonradan gördülər ki, bunlar sadəcə ağır cinayətlərdir. Bu da insanları İŞİD sıralarına qoşulmaqdan çəkindirdi. Amma eyni zamanda qeyd etməliyik ki, həyata keçirilən həbslər, İŞİD-ə qoşulanların istintaqa cəlb olunması da öz effektini verdi. Ümumiyyətlə, bu məsələyə kompleks şəkildə baxmaq lazımdır. Bir-iki amillə məsələ bitmir".

❑ **İ.MURADOV**

**Azərbaycan hökumətinin ABŞ Helsinki Komissiyasının rəhbəri, konqresmen Kristofer Smitin ötən ilin dekabrında hazırladığı "Azərbaycan Demokratiya Aktı" adlı qanun layihəsinin qəbul edilməməsi üçün hərəkətə keçməsi barədə xəbərlər yayılıb. "Turan"ın xəbərinə görə, bu məqsədlə Amerikanın "Podesta Group" lobbi təşkilatı ilə müqavilə bağlanıb.**

# Smitin layihəsinin qarşısını almaq üçün 50 min dollar...



## Mehman Əliyev: "Yalnız bu şirkət deyil, başqaları da var"
## Fəzail Ağamalı: ""907-ci düzəliş"dən də ağır qətnamədir"

Qeyd edək ki, Azərbaycan hökuməti siyasi məhbusları azad etməyəndən sonra, fevralın əvvəlində Smit qanun layihəsini irəli sürüb. Bu isə layihənin qəbulunu gündəmə gətirib. Bu nüansları nəzərə alan Azərbaycan hakimiyyətinin qabaqlayıcı tədbirlər görmək üçün hərəkətə keçdiyi deyilir. ABŞ Ədliyyə Nazirliyinin məlumatına görə, "ictimaiyyətlə əlaqələr üzrə xidmətin göstərilməsi üçün" fevralın 1-də Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov və "Podesta Group" arasında müvafiq sənəd imzalanıb. Ölkə iqtidarı konqresdə qanun layihəsinin qarşısının alınması məqsədilə iş aparılması, Azərbaycan hökumətinin yaxşılaşdırılması üçün səylərə görə, şirkətə ayda ən azı 50 min dollar ödəyəcək. Podesta Vaşinqtondakı nüfuzlu şəxslərə yol tapmaq üçün Azərbaycan hökumətinə zəmanət verir və buna görə Azərbaycanın ABŞ-dakı səfirliyindən 50 min manat dollar və əlavə xidmətlərə görə pul alacaq. Sazişdə ABŞ şirkətinin üzərinə bəzi öhdəliklər də götürdüyü deyilir.

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev bildirdi ki, hakimiyyət ABŞ şirkətini zərərsizləşdirmək üçün bu sazişi imzalayıb:** "Həmin şirkətlə müqavilənin imzalanması onu göstərir ki, konqresmenlərin bu qurumla əlaqələri var. Bu gün hakimiyyətin ABŞ-ın icra və qanunverici orqanları ilə problemləri var. Qanun layihəsi də qanunverici orqanda müzakirə edilir. Məndə olan məlumata görə, müqavilə imzalayan yalnız bu şirkət deyil, başqaları da var. Amerikanın həmin şirkətlərin zərərsizləşdirilməsi üçün addımlar atacağı da gözlənilir. Hakimiyyətin narahatçılığı onunla bağlıdır ki, təklif olunan islahatlara getmək istəmir. Eyni zamanda böhrandan çıxış üçün 10 milyard məbləğində vəsait axtarırlar. Müəyyən dərəcədə gedən proseslər üçün addımlar atılır. Vəziyyət kifayət qədər ağırdır. Siyasi məhbus məsələsində hakimiyyət yumşalmağa doğru gedəcək. Məndə olan məlumata görə, 20 nəfər siyasinin əfv olunmaq üçün hazırlanan siyahıda adı var. Yaxşı olardı ki, hökumət bu problemi sıfırlasın. Amma 20 nəfər siyasinin buraxılması prosesləri müəyyən qədər ləngidə bilər. Hakimiyyət üçün hazırda siyasi məhbus məsələsi o qədər də vacib deyil. Bu məsələ Azərbaycan iqtisadiyyatının inkişaf mərhələsində vacib ola bilərdi. İqtidara qarşı təzyiqlər daha da artacaq. Çünki nə qədər zəifsənsə, təzyiqlər yüksələcək. Bunu da hakimiyyətin özü yaradıb".

**İqtidaryönlü deputat Fəzail Ağamalı Smitin layihəsini avantürist adlandırdı:** "Layihə konqresdən keçsə, ölkəmiz üçün ağır durum yarana bilər. Onun layihəsində Azərbaycan əleyhinə hər şey var. Azərbaycan-ABŞ münasibətlərində ciddi problemlər yarana bilər. Bu istiqamətdə Azərbaycanın atdığı addımlar normal və adevkatdır. Çalışmaq lazımdır ki, bu məsələ konqresin müzakirəsinə belə çıxarılmasın. Onun qarşısını bütün istiqamətlərdə almalıyıq. Qətnamə layihəsi kifayət qədər ciddi, Azərbaycana qarşı son dərəcə qərəzli, hətta "907-ci düzəliş"dən də ağır qətnamədir. Haqlı olaraq, bu məsələyə ölkəmiz biganə yanaşmır. Hökumətimizin addımlarını müsbət qiymətləndirirəm".

**Deputat Azərbaycan tərəfin atdığı addımların nəticə verib-verməyəcəyinə də toxundu:** "ABŞ səfirinin iki gün öncə geniş məqaləsi mətbuatda dərc olundu. O məqalədə Azərbaycan-ABŞ münasibətlərinin bütün detalları üzərində dayanılır. Səfirin məqaləsi Amerikanın Azərbaycana münasibətini açıq şəkildə göstərdi. Qeyd edim ki, ABŞ-la ölkəmizin münasibətləri deyildiyi kimi gərgin deyil. Hər ölkənin sadəcə maraqları var. Amerikanın ambisiyaları var. Atılan addımlara uyğun Azərbaycan siyasətini aparır. Çünki müstəqil dövlətik. Cənab prezidentin ABŞ-a səfəri münasibətlərin yeni mərhələsi olacaq. Bu səfər əlaqələrin daha yaxşılaşdırılmasına ciddi təsir göstərəcək. Ölkə başçısının dəvəti ABŞ-ın ölkəmizə olan müsbət münasibətini ortaya qoyur. Smitin layihəsi Amerikanın fikri kimi qəbul edilməməlidir. Faktlar onu göstərir ki, Smit erməni lobbisinin təsiri altındadır. İndiki qətnamə də bunun təzahürüdür. Düşünürəm ki, ABŞ dövlət maraqlarını ayrı-ayrı konqresmenlərə görə qurban verməmelidir".

Xatırladaq ki, Smitin layihəsi ötən il dekabrın 16-da ABŞ Konqresinə təqdim olunub. 14 bəndlik layihədə Azərbaycanın yüksək rütbəli məmurlarına ABŞ vizasının almalarının qadağan edilməsi nəzərdə tutulur.

❑ **Cavanşir ABBASLI**

# "Forbes"dən bölgədə böyük müharibə xəbərdarlığı:
# "Bunun axırı yaxşı qurtarmayacaq..."



"Rusiya Ermənistana ballistik raketlər keçirib, Vaşinqton isə susur..."; ABŞ Dövlət Departamentinin sabiq rəsmisi: "Putin Ermənistanı Türkiyə və ABŞ-a qarşı özünün yeni satellit dövlətinə çevirib..."

## "Kremlin Ermənistandakı hərbi mövcudluğu NATO-nun ürəyinə istiqamətlənmiş bıçaqdır"

**"Yeni ilə iki gün qalmış, amerikalı siyasətçilər bayrama hazırlaşarkən Rusiya bölgədəki hərbi qruplaşmasını gücləndirdi və Ermənistanla səssiz-səssiz hava hücumundan müdafiə birləşmiş regional sisteminin yaradılması haqda anlaşma imzaladı. Proses sakitcə getsə də, bu, daha çox onun güclü bir əlamətidir ki, Putin NATO sərhədləri yaxınlığında yeni satellit-dövlət yaradır və ABŞ-ın olduqca vacib müttəfiqini hədələyir".**

Musavat.com-un məlumatına görə, bu barədə ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsinin sabiq müavini Adam Ereli "Forbes" üçün hazırladığı məqalədə yazır. Materialda daha sonda deyilir:

"Ermənistanda Rusiyanın hərbi güc və vasitələrinin təmərküzləşməsinə Vaşinqtonda sükutlu yanaşma var - baxmayaraq ki, bu, özünün Suriya marioneti ilə birgə Putinin regionda dominantlıq etməyə yönəlik planının əsas tərkib hissəsidir. Vaşinqton möhkəmlənməkdə olan Rusiya-İran hərbi əlaqələri haqda da susur. Ən başlıcası odur ki, Ermənistan Türkiyə ilə - NATO üzvü və alyansın cənub cinahı ilə həmsərhəddir, bu sərhədin uzunluğu 265 km-ə çatır.

Son ilyarımda, Rusiyanın Suriyada hərbi kampaniyası və Türkiyəyə təzyiqi gücləndikcə Ermənistana rus silahları və şəxsi heyətin axını artıb. Ermənistana bir çox şeylərdən əlavə, ən yeni "Navodçik 2" və "Taxion" pilotsuz uçan aparatlar, "Mi-24" döyüş vertolyotları və "İsgəndər M" ballistik raketlər ötürülüb. Keçən ilin iyulunda Putin Ermənistanda döyüş qabiliyyəti hazırlığının plandankənar yoxlanışını keçirməyi əmr edib - o məqsədlə ki, öz qruplaşmalarının Rusiyadan kənarda Rusiya maraqlarına təhlükələri dəf eləmək bacarığını yoxlasın.

Bu ayın əvvəlində isə müdafiə naziri Sergey Şoyqunun əmri ilə Rusiya Ermənistanın da yer aldığı "cənub-qərbi strateji istiqamətdə" geniş miqyaslı hərbi təlimlərə başlayıb. Təlimlərə cəlb olunmuş hərbi güc və vasitələrin ümumi sayı 8,5 min hərbi qulluqçu, 900 artilleriya qurğusu, 200 döyüş təyyarəsi və 50 hərbi gəmidən ibarət idi.

Rusiyanın Ermənistanda öz hərbi mövcudluğunu genişləndirməsi - narahatlıq doğuran tendensiyanın yalnız son təsdiği. Söhbət Putinin NATO və ABŞ-ın Avropadakı maraqları üçün yaratdığı təhlükədən gedir. Rus-erməni alyansı möhkəmlənir. Hazırda Ermənistanda Rusiyanın təxminən 5 min nəfərlik hərbi kontingenti və iki hərbi bazası mövcuddur. 2010-cu ildə tərəflər Rusiya hərbi bazasının qalma müddətini daha 24 il - 2044-cü ilədək uzatmaq barədə saziş imzalayıb. Ermənistan prezidenti Serj Sərkisyanın dediyi kimi, Moskva öz üzərinə respublikanın hərbi qüvvələrini "müasir silah növləri və xüsusi hərbi texnika" ilə təchiz eləmək öhdəliyi götürüb. Kremlin Ermənistanda ən böyük plasdarmı İrəvandan 120, Türkiyə ilə sərhəddən isə 10 km-dən də az məsafədə yerləşən Gümrüdəki 102 saylı bazadır.

İstənilən başqa NATO üzvü dövlətinin sərhədi yaxınlığında Rusiya hərbi qüvvə və vasitələrinin bu cür dislokasiyası qəzəbli etirazlar doğurardı. O zaman nədən biz Türkiyəyə münasibətdə pis ört-basdır edilən təcavüz qarşısında susuruq? Və nədən Rusiya zərbə hissələrinə fəxri qəbul düzənləyən Ermənistanı ittiham eləmirik?

Hər necə olmasa, Türkiyə İŞİD-ə qarşı qlobal müharibədə olduqca vacib tərəfdaşdır və ABŞ-ın başçılıq elədiyi koalisiyanın o azsaylı üzvlərindəndir ki, İŞİD-in strateji əhəmiyyətli dayaq məntəqələri yaxınlığında hərbi bazalara malikdir. 2015-ci ilin iyulunda ABŞ və Türkiyə Suriya və İraqda İŞİD-lə birgə mübarizə haqda yükün anlaşmanı qəbul elədi. Bu da Amerikaya imkan verdi ki, Türkiyənin cənubundakı İncirlik bazasından təyyarələri havaya qaldırıb, Suriyanın şimal rayonlarındakı terrorçuların mövqelərinə zərbələr endirsin.

Məsələ ondadır ki, bizə təhlükə vəd edən hədəyə biz diqqət etmirik. Beynəlxalq diplomatiyada isə coğrafiya - hər şey deməkdir. Ermənistan ABŞ-ın üç mühüm müttəfiqi ilə həmsərhəddir - Gürcüstan, Azərbaycan və Türkiyə. Rusiya qüvvələri hazırda Gürcüstan ərazilərini işğal altında saxlayır. Azərbaycan daima Moskvanın şantajına məruz qalır və Rusiya enerjidaşıyıcılarının asılılığından Avropanı qurtarmaq üçün o, əsas elementdir. Səhvlər buraxmaq lazım deyil: Ermənistan-Rusiya alyansının gücləndirilməsi fonunda Kremlin Ermənistandakı hərbi mövcudluğu - NATO-nun ürəyinə istiqamətlənmiş bıçaqdır. Di gəl, Moskva əlində silah oynadarkən Vaşinqton susqunluq göstərir.

## "Rusiya Türkiyəni düşmən dövlət qismində görür və geri çəkilmək fikrində deyil"

Ötən ilin avqustunda "The Moscow Times" nəşri belə bir xəbər yaymışdı: prezident Vladimir Putin Moskvadakı türk səfirinə deyib: **"Diktator-prezidentinizə çatdırın ki, o, özünün İŞİD terrorçuları ilə birgə cəhənnəmə düşə bilər və mənim Suriyanı (Ərdoğan üçün) böyük Stalinqrada çevirməkdən savayı yolum qalmır".** Situasiyanın bütün oynaqlığını kənara qoysaq, məram-niyyət tam aydındır: Rusiya Türkiyəni düşmən dövlət qismində görür və geri çəkilmək fikrində deyil.

Yaranmış vəziyyət həyəcan doğurur: Ermənistan etibarsız, təhlükəli tərəfdaşa münasibətdə səhlənkarlıq edir. Rusiya isə Ermənistandan istifadə edərək bizim maraqlarımıza təhlükə yaradır. ABŞ güc mövqeyindən danışıqlar aparmalıdır. Biz isə bunun əvəzinə Putinin açıq güc nümayişi ilə barışırıq. XX əsrin tarixi göstərir ki, bunun axırı yaxşı qurtarmayacaq.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 45 (6366) 26 fevral 2016



# Elçibəy iqtidarının fevral səhvləri

**1992-93-cü illər AXC hakimiyyətinin fevral ayı bir sıra mühüm hadisələrlə yadda qalıb. 23 il öncənin bu günlərində baş verən iki mühüm hadisə həmin dövrdə yaşayanların, Elçibəy iqtidarında təmsil olunanların yaddaşlarından silinməyib.**

Söhbət Azərbaycan ordusunun 2-ci korpusunun komandiri Sürət Hüseynovun əsgərləri Ağdərədən geri çəkməsi və Elçibəyin həmin vaxt Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri Heydər Əliyevlə 8 saatlıq görüşündən gedir. Məhz bu iki mühüm hadisəni Elçibəy hakimiyyətinin süquta uğradılmasına gedən yolda başlanğıc hesab edirlər.

Bu hadisələrdən sonra AXC-Müsavat hakimiyyəti süquta uğramaqdan qurtula bilmədi. Sonrakı bütün proseslər Elçibəy iqtidarının əleyhinə işlədi. Mərhum prezident fevral ayındakı hadisələrə görə bəzən tənqidlərə də məruz qalır. Səbəb Elçibəyin S.Hüseynova etdiyi güzəştlər, onun xəyanətindən sonra qətiyyət göstərməməsi və prezident ola-ola H.Əliyevlə 8 saatlıq görüşü göstərilir.

Bu qədər uzun görüşə ehtiyac nə olub? Bu sualın cavabı hələ də tapılmayıb. Doğrudur, keçən müddətdə Elçibəy hakimiyyətinin süqutunun başlanğıcı hesab olunan hər iki hadisə ilə bağlı həmin iqtidarın rəhbərliyində təmsil olunan şəxslərdən bəzilərinin açıqlamaları olub. Amma nədənsə bu açıqlamalarda gizlədilən nüanslar sezilir.

**Elçibəy hakimiyyətinin baş naziri olmuş Pənah Hüseynin 1997-ci ilin fevralında "7Gün" qəzetinə verdiyi müsahibədə Əbülfəz Elçibəy və Heydər Əliyev arasındakı 8 saatlıq görüş barədə dedikləri, bəlkə də indiyə qədər həmin hadisə ilə bağlı deyilən ən doğru fikirlərdir. Pənah bəyin həmin fikirlərini oxucularımızın diqqətinə yenidən çatdırırıq:** "...Cəmiyyətdə Əbülfəz Elçibəylə Heydər Əliyevin 8 saatlıq görüşü barədə çox söz-söhbətlər dolaşır. Hərçənd ki, bu görüş xalq yaradıcılığı motivləri ilə xeyli zənginləşib. Nə isə... Biz o vaxt idarəçilikdə təxminən Amerika modelini əsas götürən bir islahat hazırlamışdıq. Həmin islahat Nazirlər Kabinetinin ləğvini nəzərdə tuturdu. Məhz Heydər Əliyevlə görüşdən sonra onun məsləhətləri nəticəsində Elçibəy həmin islahatdan imtina etdi. Və bundan sonra mənim baş nazir olmaq zərurətim meydana çıxdı".



**Hikmət Hacızadə:** "Elçibəy deyirdi ki, o, bacarıqlı şəxsdir, niyə bir yerdə olmayaq..."



**Sabir Rüstəmxanlı:** "Elçibəyin hakimiyyətə gəlməsi tez idi"

**AXC-Müsavat hökumətinin Rusiyadakı səfiri Hikmət Hacızadə bildirdi ki, bu iki hadisənin Elçibəyin iqtidardan getməsinə aidiyyəti yoxdur:** "Elçibəyin devrilməsi Rusiyanın Baş Qərargahının kəşfiyyatı tərəfindən çoxdan planlaşdırılırdı. Onlar bizi açıq şəkildə hədələyirdilər. Sonda da Surət Hüseynovu qabağa verdilər. Ona görə də Ağdərə hadisəsinin və Heydər Əliyevlə olan 8 saatlıq görüşün Elçibəyin hakimiyyətdən getməsinə səbəb olması barədə fikirlər doğru deyil. Açığı, görüş barədə eşitmişəm, amma orada olmamışam. Ona görə də nədən söhbət getdiyini bilmirəm. Amma görənlər deyir ki, 8 saatlıq görüşün çoxu xatirələrə həsr olunub. Hər ikisinin mehriban söhbət etdiklərini deyirlər. Elçibəy Heydər Əliyevin inzibati bacarıqlarını dəyərləndirirdi. Ondan ölkənin müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində istifadə etmək istəyirdi. Elçibəy deyirdi ki, o bacarıqlı, bilikli şəxsdir, niyə bir yerdə olmayaq, müstəqillik yolunda birlikdə çalışmayaq. İnanmıram ki, 8 saatlıq görüşdə xəyanət ola. Elçibəylə Heydər Əliyev çoxdan tanış idilər. Azərbaycan çərçivəsində baş verən hadisələrdə öndə olan şəxslər idilər. Niyə görüşməməliydilər? Belə görüşlər olur və təbiidir".

**Elçibəy hökumətinin mətbuat və informasiya naziri olmuş Sabir Rüstəmxanlı bildirdi ki, ən böyük səhvləri ölkə daxilində olan qüvvələrin güclərini nəzərə almamaları olub:** "Həmin dövrdə hakimiyyət daxilindəki prosesləri nəzərə almadan müxalifətin, Elçibəyin hakimiyyətə gəlməsi tez idi. O dövrdə müxalifət çox güclü idi. İstənilən hakimiyyəti iradəsinə tabe etdirə bilərdi. Bu baxımdan həmin dövrün iqtidarını istədiyimiz istiqamətə yönəltmək daha doğru idi, nəinki hakimiyyətə gəlmək".

❑ **Cavanşir ABBASLI**

# Mərkəzi Bankın dollar "simicliyinin" səbəbi üzə çıxır




## Samir Əliyev: "Mərkəzi Bank demək istəyir ki, valyuta ehtiyatları məhdud həcmə çatıb"

**Mərkəzi Bankın fevralın 24-də keçirdiyi hərracda bankların dollara olan tələbatını tam ödəməməsi cəmiyyətdə narahatlıq yaradıb. Təhlillər bu durumun bazarda dollar qıtlığına və dolayısı ilə dolların bahalaşmasına səbəb olacağı ehtimalı üzərindədir. Qeyd edək ki, Mərkəzi Bank hərracda cəmi 30 milyon dollar məbləğində vəsait satışa çıxarıb. Hərracda iştirak edən 14 bank isə 66,760 milyon dollar almaq istəyib. Mərkəzi Bank valyuta sifarişinin cəmi 44,9 faizi təmin edib. Yəni dollara olan tələbatın heç yarısı da ödənilməyib. 4 milyard dollara yaxın valyuta ehtiyatlarına malik olan Mərkəzi Bankın 37 milyon dollara yaxın vəsaiti bazara çıxarmamasının səbəbləri bəlli deyil.**

Cəmiyyəti isə bir sual maraqlandırır. Mərkəzi Bank bu addımı ilə nə etmək istəyir? Dolların növbəti dəfə bahalaşması üçün şərait yaradır, yoxsa vəsaitlərinə qənaət etmək istəyir? Bu qurum bazarda yaranan dollar qıtlığının hansı nəticələrə səbəb olacağını, "qara bazarın" canlanacağını gözə alırmı?

**İqtisadçı ekspert Samir Əliyev** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Mərkəzi Bankın hərracları manatın məzənnəsinin formalaşmasına birbaşa təsir edir və son hərrac dolların möhkəmlənməsinə şərait yaratdı: "Xatırlayırsınızsa, hərrac yeni başlayanda 30-dan çox bank iştirak etmişdi. Dollara kifayət qədər tələbat var idi. Sonradan zaman ötdükcə, hərracda iştirak edən bankların sayı əhəmiyyətli dərəcədə azaldı. Belə bir təəssürat yarandı ki, Mərkəzi Bank böyük həcmdə valyutanı, konkret desək, 200 milyon dolları satışa çıxarırdı, tələbat tam şəkildə ödənilirdi və artıq da qalırdı. Son vaxtlar isə alış 20-30 milyon dollar səviyyəsinə düşmüşdü. Ancaq son hərracda Mərkəzi Bank həmişəkindən fərqli olaraq satışa 30 milyon dollar çıxardı. Məbləği birdən-birə 200 milyon dollardan 30 milyona saldı, tələbat da əvvəlki ilə müqayisədə xeyli artdı. Elə oldu ki, eyni gündə həm təklif azaldı, həm də tələbat çoxaldı və tələbat tam ödənilmədi. Bu da dolların manata olan rəsmi məzənnəsinin bahalaşmasına gətirib çıxardı. Çünki manatın dollara olan məzənnəsi Mərkəzi Bankın təşkil etdiyi hərracın nəticələri əsasında formalaşır".

**Ekspertin sözlərinə görə, Mərkəzi Bank müəyyən inzibati metodlardan istifadə edərək, manatın məzənnəsini sabit saxlamağa çalışır:** "Əvvəlki hərraclarda tələbatın getdikcə aşağı düşməsinin səbəbi o idi ki, bazarda pul kütləsi az idi. Mərkəzi Bank dəfələrlə bildirmişdi ki, pul qıtlığı var. Bunun səbəbi həm də manata təzyiqi azaltmaq idi. Təsəvvür edin ki, bu gün pul kütləsi buraxılsa, dollar alışına yönələcək. Bu da manatın məzənnəsinə çox böyük təzyiq olar və manatın ucuzlaşmasına gətirib çıxarar. Buna görə də Mərkəzi Bank bu inzibati metodlardan istifadə etməklə hələ ki manatın məzənnəsini sabit saxlamağa çalışır. Biz də dəfələrlə demişik ki, bu metodun müvəqqəti effekti olsa da, uzunmüddətli effekti olmayacaq.



Samir Əliyev

Sual olunur ki, Mərkəzi Bank hərraca çıxarılan valyutanın həcmini niyə birdən-birə 200 milyon dollardan 30 milyona saldı. Burada bir nüans var ki, manat devalvasiyaya uğrasa belə, biz görürük ki, Mərkəzi Bankın valyuta ehtiyatları əriməkdə davam edir. Deməli, devalvasiya valyuta ehtiyatlarının azalmasına kömək etmir.

Mərkəzi Bank bununla onu demək istəyir ki, mənim valyuta ehtiyatlarım məhdud bir həcmə gəlib çatıb və bundan sonra çox məhdud həcmdə dollar satışı həyata keçirəcəyəm və lazım gəlsə, manatın növbəti dəfə ucuzlaşmasına gedəcəyəm. Yəni Mərkəzi Bank valyuta ehtiyatlarını qorumağı üstün tutur, nəinki manatın məzənnəsini saxlamağı. Mərkəzi Bank bunu demək istəyir. Həm də artıq cəmiyyəti üzən məzənnə siyasətinə hazırlayır.

Yəni qarşıdakı dövrlərdə ola bilər ki, manat bu gün möhkəmlənsin, sabah isə ucuzlaşsın, yəni artıq manat saxlanılmaya bilər. Mərkəzi Bank manatı dollara nisbətdə məzənnəsinin oynamasına hazırlayır.

Mən hesab edirəm ki, manatın indiki məzənnəsi müvəqqətidir, milli valyutanın bahalaşması üçün iqtisadi zəmin yoxdur. Əksinə, iqtisadi vəziyyət manatın əleyhinədir. Manat əgər tam sərbəst buraxılsa, sürətlə ucuzlaşa bilər. Mərkəzi Bank yəqin ki, tədricən manatı ucuzlaşdırmaqda davam edəcək. Hər bir halda, bu onların qərarıdır. Hər halda, mən manatın məzənnəsi üçün yaxın vaxtlarda optimist bir durum görmürəm".

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov isə yaxın zamanlar üçün devalvasiya ehtimalını istisna etdi:** "Mən bunu devalvasiya ilə ələqələndirməzdim. Devalvasiya proqnozu vermək hazırda çox tezdir. Ancaq proseslər belə davam edərsə, ciddi iqtisadi islahatlara gedib nəticələr əldə edilməzsə, müəyyən problem yarana bilər. Ancaq mən hələ ki, bu çevikliyi görmürəm. Digər tərəfdən, neftin qiyməti də artıb-azalmır, 30 dollar civarında qalıb. Mərkəzi Bankın da valyuta ehtiyatları azalıb. Mərkəzi Bank ehtiyatlarını qoruyub saxlamaq üçün valyuta bazarına müəyyən müdaxilələr edir. Bütün bunlar faktdır. Lakin mən hesab etmirəm ki, yaxın vaxtlarda devalvasiya olsun.

Mərkəzi Bankın bu addımının səbəbi odur ki, dollarlaşma prosesi gedir, manatı dollara çevirib, sonradan banka yatırmamaq problemi aktualdır. Biz əmanətlərin tam sığortalanması haqqında qanun qəbul etdik. Ancaq o qanun hələ imzalanmayıb. O qanun vaxtında imzalansa idi, müəyyən qədər bu problemlərin də qarşısı alınmış olardı. Deyirlər ki, banklar birləşir, bank sektorunda təmərküzləşmə prosesi gedir, ona görə də müəyyən qədər gecikir. Ancaq bu qanun nə qədər tez imzalansa, bir o qədər yaxşı olar".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 45 (6366) 26 fevral 2016

**Azərbaycanda işsizlərin sayı kifayət qədərdir. Bu işsizlər arasında diplomlular xüsusi diqqət çəkir. İqtisadi böhran nəticəsində bir çox dövlət müəssisələrinin ixtisarlar etmək məcburiyyətində qalması diplomlu işsizlər ordusunu daha da genişləndirib.**

# Diplomlu işsizlər - ekspertlər təkliflər verir

## Məlahət Mürşüdlü: “Bir sıra universitetlərin bağlanması vacibdir”




Bir çox ekspertlər diplomlu işsiz gənclərin çoxluğunun səbəbini ali məktəblərin çoxluğunda, həmçinin Azərbaycanın tələblərinə uyğun olmayan ixtisasların mövcudluğunda görsə də, bəziləri bunun səbəbini iş yerlərinin az olması ilə əlaqələndirir. Bəs əslində səbəb nədir?

**Azad Müəllimlər Cəmiyyətinin sədri Məlahət Mürşüdlü bir sıra universitetlərin birləşdirilməsinə və bağlanmasına ehtiyac olduğunu dedi:** “Azərbaycanda hansı ixtisas üzrə diplomlu məzunların işsiz qalmasına dair heç bir statistik məlumat yoxdur. Müəllim, neftçi, həkim, iqtisadçı peşəsinə sahib olan neçə nəfər işsiz var?! Biz bunların heç birini bilmirik. Həmçinin Azərbaycanın əmək bazarında tələbatın hansı peşələrə olması ilə bağlı da heç bir məlumat yoxdur. Ona görə də əvvəlcə bunlar araşdırılmalıdır. Öyrənilməlidir ki, əmək bazarında kimlərə ehtiyac var. Azərbaycanda doğrudan da universitetlərin sayı çoxdur. Müəllim ixtisası hazırlayan institutların birləşməsi, universitetlərin azaldılması lazımdır. Burada səviyyəli ixtisaslı kadra tələbat var. Digər sahələrə də nə qədər tələbat olduğu öyrənilməli, sonra da universitetlərin birləşdirilməsinə, bağlanmasına başlanılmalıdır. Amma bizdə bir ixtisası, peşəni hazırlayan ali məktəblərin sayı olduqca çoxdur. Hətta xaricə tələbə oxumağa göndərəndə də Azərbaycana hansı ixtisaslar lazım olduğunu öyrənmək lazımdır. Bu baxımdan düşünürəm ki, araşdırma aparılmalıdır. Universitetlərin keyfiyyətinə baxmaq lazımdır ki, kadr potensialı necədir, məzunları necə hazırlayırlar. Elə universitetlərimiz var ki, orada sovetdən qalma mühazirələr oxunur, seminarlar keçirilir. Buna görə də bir sıra universitetlərin birləşdirilməsi, bağlanması vacibdir”.

**İqtisadçı ekspert Rəşad Həsənov Azərbaycanda işsizliyin ən mühüm problemlərdən biri olduğunu dedi:** “Azərbaycan kimi ölkələrdə işsizlik mühüm problemlərdən biridir. Bu gün böhranı da nəzərə alsaq, işsizlik sürətlə artmaqdadır. Burada diplomlu işsizlər də var, diplomsuz işsizlər də. Ötən illə müqayisədə bu il dövlət qulluğunda çalışanların bir qismi ixtisar olunub, ixtisar prosesləri də davam edir. Bu isə o deməkdir ki, diplomlu işsizləri sayı daha da artacaq. Digər məsələ isə ondan ibarətdir ki, Azərbaycanda bir çox hallarda vətəndaşlar dövrün tələblərinə uyğun olmayan istiqamətlərdə təhsil alır. Nəzərə alsaq ki, bazar iqtisadiyyatıdır və burada məşğulluğun təşviq edilməsində təbii ki, dövlətin rolu var və dövlət bu istiqamətdə siyasət yeritməyə borcludur. Amma digər tərəfdən də vətəndaş da əmək bazarının tələblərinə uyğun olaraq formalaşmalı və bu istiqamətdə təhsil almalıdır ki, növbəti dövrlərdə öz əməyini sata bilsin. Ölkədə kifayət qədər universitetlər var ki, o universitetlərin ixtisaslarına baxanda görürük ki, əmək bazarının tələblərinə cavab vermir. Bir çox hallarda heç kəsə lazım olmayan istiqamətdə ixtisaslar açılır. Bu da əhalinin psixologiyasına uyğun olaraq, yəni nə olur-olsun diplom olsun prinsipinə əsaslanaraq vətəndaşlara satılır. Amma düşünürəm ki, hazırda vəziyyət dəyişir və insanlar onlara lazım olan istiqamətlərdə təhsil almalıdırlar. Bu kimi neqativ yanaşmalar da aradan qalxmalıdır. İnsanlar işləmək üçün təhsil almalıdır. Hansısa diplom xatirinə oxumamalıdır. Əvvəlki dövrlərdə Azərbaycanda öz sahəsi, ixtisası üzrə fəaliyyət göstərənlər az idi. Yəni kim harada gəldi işləyirdi. Bu da haradasa ixtisasın əhəmiyyətini itirmişdi. Amma son dövrlərdə həm özəl, həm də dövlət sektolarında attestasiya üsulu ilə işə qəbul, həmçinin daha müasir standartlara cavab verə bilən təhsilə malik olan insanların işə qəbul edilməsi düşünürəm ki, nə olur-olsun diplom olsun kimi yanaşmanın aradan qalxmasına gətirib çıxaracaq. Bu prosesin özü də lazım olmayan ixtisasların ləğv olunmasına, ümumiyyətlə, bazar tələblərinə uyğun olmayan mütəxəssis yetişdirə bilməyən ali məktəblərin bağlanmasına gətirib çıxaracaq. Yəni rəqabət mühitinin formalaşması prosesi başlayacaq desək yanılmarıq".

**İqtisadçı ekspert bildirdi ki, artıq dövlət iş yaratmaq funksiyasını itirib:** “Əgər hökumət liberal iqtisadi mühiti formalaşdırarsa, düşünürəm ki, növbəti dövrlərdə özəl sektor kifayət qədər əmək ştatı yaratmaqla hökumətə məşğulluq siyasətində böyük dəstək göstərmiş olar. Onu da nəzərə almaq lazımdır ki, artıq dövlətin iş yaratma funksiyası əhəmiyyətini itirir. O baxımdan ki, artıq dövlət gəlirləri azalır və məcburi xərclərin azaldılması, ixtisarların olması prosesini hazırda yaşayırıq. Hökumət mümkün qədər özəl, real sektorun iş yeri yaratmaq imkanlarını genişləndirməli, təşviq etməlidir. Burada məsləhətçi, köməkçi, maliyyəçi funksiyalarını öz üzərinə götürməlidir”.

❑ **Günel MANAFLI**

# YAP-ın icra katibi Siyavuş Novruzovu “vurdu”

## Əli Əhmədov: “Siz Milli Məclisin son plenar iclasında hökumət üzvləri üçün nəzərdə tutulan boş yerlər gördünüzmü?”

**Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi, baş nazirin müavini Əli Əhmədov fevralın 23-də Milli Məclisin iclasında 2016-cı ilin dövlət büdcəsinə dəyişikliklərin müzakirəsində hökumət üzvlərinin iştirak etməməsi barədə səsləndirilən fikirlərə münasibət bildirib.**


Əli Əhmədov

“Trend”in məlumatına görə, Ə.Əhmədov deyib ki, Milli Məclisin və deputatların əsas vəzifələrindən biri də odur ki, hökuməti tənqid etsinlər: “Parlament elə bunun üçündür. Yəqin siz də xatırlayırsınız. Vaxtilə mən deputat olan zaman hökumət üzvlərinin büdcənin müzakirəsində fəal iştirak etməməsini tənqid etmişdim. Siyavuş Novruzovun hökumət üzvlərini tənqid etməsi ilə bağlı isə demək istəyirəm ki, fevralın 23-də keçirilən Milli Məclisin iclasında Azərbaycanın dövlət büdcəsinin müzakirəsi getməyib. Burada söhbət qəbul olunmuş dövlət büdcəsinə dəyişikliklərin edilməsindən gedir. Bunlar fərqli-fərqli anlayışlardır”.

**Ə.Əhmədov deyib ki, 2016-cı ilin dövlət büdcəsi parlamentin ötən ilin oktyabr ayında keçirilən iclasında müzakirə olunaraq təsdiq edilib:** “Həmin iclasda da Azərbaycanın baş naziri başda olmaqla, bütün hökumət üzvləri iştirak ediblər. Həmin iclas zamanı kimlərin sualları var idisə, onu hökumət üzvlərinə veriblər. Ancaq fevralın 23-də keçirilən Milli Məclisin iclasında isə qəbul olunmuş büdcəyə müəyyən dəyişikliklərin edilməsi ilə bağlı müzakirələr aparılıb. Dünya və Azərbaycan parlamentinin təcrübəsində də büdcəyə edilən dəyişikliklər zamanı bütün hökumət üzvlərinin həmin iclasda mütləq iştirak etməsi tələbi yoxdur. İndiyədək Azərbaycanda dövlət büdcəsinə bir neçə dəfə dəyişiklik edilərək təkmilləşdirmələr aparılıb. Həmin dəyişikliklər zamanı keçirilən parlament iclaslarında heç də hökumətin bütün üzvləri iştirak etməyib”.

**Baş nazirin müavini vurğulayıb ki, digər tərəfdən isə büdcənin hazırlanması Maliyyə Nazirliyinin səlahiyyətlərinə aid olan məsələdir:** “Təbiidir ki, büdcəyə dəyişikliklərlə əlaqədar kimin nə sualı varsa, ünvanlanacaq yeganə qurum Maliyyə Nazirliyidir. Milli Məclisin son plenar iclasında da maliyyə naziri iştirak edirdi. Əgər büdcə ilə bağlı kimin nə sualı var idisə, o zaman həmin sualları ən səhih cavablandıracaq hökumət üzvü maliyyə naziridir. Üçüncüsü isə əgər Milli Məclisdə müzakirələr zamanı hər hansı hökumət üzvünün orada iştirakı məqsədəuyğundursa, o zaman Milli Məclis rəhbərliyi lazım olan hökumət üzvlərini iclasa dəvət etməlidir”.

**Ə.Əhmədov deyib ki, Avropa Parlamentində hökumət üçün xüsusi lojalar mövcuddur:** “Ancaq Azərbaycan parlamentində hökumət nümayəndələri üçün xüsusi loja yoxdur. Hökumətin parlamentdə tam tərkibdə iştirakı üçün gərək yerlər hazırlansın. Siz Milli Məclisin son plenar iclasında hökumət üzvləri üçün nəzərdə tutulan boş yerlər gördünüzmü? Əlbəttə ki, xeyr. Həmin yerlər əvvəl kimlər üçün nəzərdə tutulurdusa, yenə də onlar əyləşmişdilər. Digər tərəfdən isə Milli Məclis rəhbərliyi tərəfindən bizə heç bir dəvət göndərilməmişdi. Əgər bizə dəvət gəlsəydi, biz də böyük məmnuniyyətlə orada iştirak edərdik. Bütün dünyada parlament iclasları üçün iştirakı məqsədəuyğun sayılan hökumət üzvləri əvvəlcədən dəvət edilir. Amma bizə heç dəvət yox idi. Tənqid yaxşı şeydi, ancaq yerində edilsin”.

# Məşhur bəstəkarın oğlunun adı bank qalmaqalında

## Eldar Mansurov: “Mən atasıyam, bu barədə xəbərim yoxdur”

**“Beynəlxalq Bankın sədr müavini Ülvi Mansurov vəzifəsindən azad edilməlidir”. Bu iddianı bank məsələləri üzrə ekspert, hüquqşünas Əkrəm Həsənov “Yeni Müsavat”a açıqlamasında bildirib. Ekspertin sözlərinə görə, hazırda Beynəlxalq Bankın İdarə Heyətinin sədr müavini vəzifəsində çalışan Ülvi Mansurovun fəaliyyəti qanunaziddir:**


Ülvi Mansurov

“Bu, qanunsuzluqdur. Yəni o mənada ki, ”Banklar haqqında" Qanunun 10-cu maddəsində konkret olaraq qeyd edilib ki, bank hansısa bir pozuntuya görə bağlanıbsa və yaxud da müflis elan edilibsə və bu barədə qərarın qəbul edildiyi tarixdən əvvəlki bir il ərzində bankda rəhbər işləyən şəxslər 3 il ərzində başqa bankda vəzifə ala bilməz. Məlum olduğu kimi, ötən ilin fevralın 1-də Mərkəzi Bank pozuntulara görə “Bank Technique” lisenziyasını əlindən alıb, fevralın 10-da isə məhkəmə bu bankı müflis elan edib. Hazırda Beynəlxalq Bankın rəhbər şəxslərindən olan Ülvi Mansurov 2012-2015-ci illərdə həmin bankın İdarə Heyətinin sədri vəzifəsində çalışıb. Mərkəzi Bank “Bank Technique”nin müflisləşməsindən sonra dərhal Ü.Mansurovu hazırkı işindən azad etməli idi. Beynəlxalq Bankın Müşahidə Şurası bu barədə tədbir görməli və yaxud da Ülvi Mansurov özü könüllü surətdə vəzifəsindən istefa verməli idi. Təəssüf ki, bu tədbirlərin heç biri görülməyib. Bu da onu deməyə əsas verir ki, Mərkəzi Bank və digərləri ilk növbədə “Banklar haqqında” Qanundan xəbərsizdirlər".

Məsələ ilə bağlı Beynəlxalq Bankın münasibətini öyrənməyə çalışdıq. Bankın mətbuat xidmətinin rəhbəri Yadigar Cəfərli qeyd etdi ki, bankın rəhbərliyi bu məsələyə heç bir şərh vermək istəmir.

**Qeyd edək ki, Ülvi Mansurovun bəstəkar Eldar Mansurovun oğludur. Bəstəkar oğlu haqqında səslənən iddialara bu cür münasibət bildirib:**

“Mən atasıyam, bu barədə heç nədən xəbərim yoxdur. Ümumiyyətlə, məsələnin mənə heç bir aidiyyəti yoxdur”.


Eldar Mansurov

Qeyd edək ki, Ülvi Mansurov bank sektorunda ilk işə 2001-ci ildə Beynəlxalq Bankın “Sahil” filialında başlayıb. 2003-cü ildə o, baş idarəyə maliyyə departamentinə baş mütəxəssis kimi dəvət edilib. 3 il bu vəzifədə işlədikdən sonra Mansurov maliyyə auditi və monitorinq departamentinə rəhbər təyin edilib. 2009-cu ildə Ülvi Mansurov mühasibatlıq üzrə müavin vəzifəsində 2 il çalışdıqdan sonra, digər bankda işləmək üçün dəvət alıb. Ü.Mansurovun növbəti iş yeri 2012-ci ildə “Bank Technique”də İdarə Heyətinin sədri vəzifəsi olub. Ü. Mansurov 2015-ci ilin əvvəlində bu vəzifədən istefa verib. Bir neçə aydan sonra isə Beynəlxalq Bankın İdarə Heyətinin sədr müavini vəzifəsinə gətirilib.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 45 (6366) 26 fevral 2016




# Bəşəriyyətin ən ciddi probleminin çarəsi

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Həmd olsun Allaha ki, bizlərə mövcudiyyət və yaşama lütfünü inayət edib. Ağıl, şüur, dərk, iradə verib. İnsanın şüur və dərkə malik olması böyük nemətdir. İnsanı başqa varlıqlardan fərqləndirən cəhətlərdən biri də budur ki, bizlərin şüuru, ağlı, dərki var. Seçimli bir yaşayışımız var. O seçimdir ki, bizlərə xüsusi imkanlarımızın açılmasına fürsət yaradır. O imkanlar açıldığı zaman dəyərli olur, çünki seçimlərimizə əsaslanır.**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## Mövcudiyyətimiz seçimlərimizdən ibarətdir

İnsanın əməllərində, davranışlarında, rəftarlarında seçimli davranması çox önəmlidir. Bu davranış və əməllərin bünövrəsini təşkil edən, sözsüz ki, insanın imanı, etiqadı, dünyagörüşüdür. İnsanın əməllərinin niyyəti burada əsas rol oynayır. Əməli seçimlərindən öncə insan şüurunda, dərkində seçim edir və dərkində etdiyi seçim də insanın canlı, fəal olmasına xidmət edir. Düşüncədə seçim etmək iradədən keçir. Bizlər iman gətirmişik, amma hər vəziyyət və durumumuzda iman gətirdiyimiz hala, vəziyyətə diqqət etməmiz çox önəmlidir. Qəflət bunun əksidir. Qəflət o zamandır ki, bizlər iradə və seçim etməmiş olaq. Qəflət o zamandır ki, bizlər iradəli və seçimli halda deyilik. O zaman ki, bizim mövcudiyyətimiz insanın potensialına, tutumuna uyğun şəkildə baş vermir, bu vəziyyətimizə xüsusi diqqət etməliyik.

## Haramların haram olmasının səbəblərindən biri də Allahı unutdurmasıdır

İnsanın necə seçim etməsindən asılı olaraq, mövcudiyyəti formalaşır. İnsanın seçimləri onun ruhiyyəsində, qəlbinin durumunda, mövcudiyyətində də öz təsirini qoymuş olur. Bəzi seçimlər bizləri köklü olaraq həyatımızda Allahı unutdurur. Əgər haram işlərin haramlılığının fəlsəfəsinə diqqət etsək, görəcəyik ki, o əməllər və rəftarlar ki, haramdır, onların o cür olmasının səbəbi həm də odur ki, onları insanı bir hala gətirib çıxarırlar ki, insan Allahı unudur, Allahı xatırlamır. Bu mənfi rəftarlara mübtəla olan insanın həyatında İlahi dəyərlər yer almır.

Əslində Allahı unutmadan günah etmək mümkün olmur. Günah həyata keçən an, insan Allahı unutmuş olur. Digər tərəfdən, seçimlər var ki, onlar edilən zaman, yaşanan zaman Allah xatırlanır. Onlar həyata keçən zaman Allah zikr olunur. Allahı xatırlaya-xatırlaya mümkün deyil ki, insan günah etsin. Allahı xatırlamaq insanı günah etməkdən sığortalayır. Allahı unutduran seçimlər vacib deyil ki, yalnız haram olsun. Bəzən hətta haram, məkruh da olmayan, gündəlik həyat məşğuliyyətləri və bizim onlarla bağlı seçimlərimiz də bizə Allahı unutdurur.

## Qəlblərin aramlıq mənbəyi

Rəbbimiz bizə bu mövzuda çox ciddi xatırlatmalar edir. Qurani-Kərimin "Rəd" surəsinin iyirmi səkkizinci ayəsində Rəbbimiz bizlərə önəmli bir həqiqəti çatdırır: **"O kəslər ki, iman gətiriblər və qəlbləri Allahı yada salmaqla rahatlıq tapır. Bilin! Qəlblər yalnız Allahı yada salmaqla rahatlıq tapır"**. İnsanın Rəbbi zikr etməsi, Allahı xatırlaması qəlblərdə bir aramlıq yaradar, qəlbləri rahatlıq verər. İnsan iman gətirir və Allahı xatırlayan zaman əslində o gətirdiyi imanı diri saxlayır, fəal edir. Ona görə də iman gətirmək və imanlı halı qoruyub saxlamaq - çox önəmli məsələdir. İman gətirmək və imanın diri, canlı, oyaq olması, aktiv olması çox önəmli məsələdir. İnsan ola bilsin ki, iman gətirib, amma qəflətdədir və imanı aktiv halda deyil. Belə insan qəflətdədir, hətta nəyə iman gətirdiyindən də qəflətdədir. Bu zaman təbii ki, qəlbi nə aram olar, nə rahat olar. Amma insan gətirdiyi imanı diri saxlamağı, canlı saxlamağı bacarsa, xoş olar halına. Bu da iradədən, seçimdən, öz durumuna diqqətdən, əzmdən, çalışmasından keçir. Belə olan halda insanların qəlbləri aramlıq tapar.

Rəbbimiz eyni zamanda xəbərdarlıq edir ki, qəlblər yalnız Allahı yad etməklə, Allahı zikr etməklə, xatırlamaqla aramlıq tapar. Çox ciddi məsələdir. Qəlblərin aramlıq, rahatlıq tapması, lazımi halda olması yalnız Allahı xatırlamadan keçir. Bunun başqa bir vasitəsi yoxdur. Əgər insan qəflət etsə, Allahın zikrindən qafil olsa, Allahın dərgahında olmağını unutsa, gətirdiyi imandan qəflət etsə, imanı aktiv olmasa, canlı olmasa, bu halda qəlb narahat, nigaran, kifayət qədər iztirablı halda olar. Deməli, qəlblərin rahatlığı əslində imanının diri olmasına bağlıdır. İmanın diriliyini təmin edən isə, məhz Allaha bağlantıdır.

## Allahı zikr etməyən qəlb iztirab içərisində olar

Təfsiri çalarlara diqqət edəndə görürük ki, yalnız Allahın zikri və xatırlanması qəlblərin rahatlıq və aramlıq tapmasının səbəbidir. Qəflətdə olanlar nigaran və iztirablı olarlar. Qəlblərin aramlıq və rahatlığı yalnızca Allahı xatırlamadan keçir. İnsan iman gətirdiyi məsələnin fərqində olmalıdır. İman gətirib ki, onu bir Yaradan var, o, burada, müvəqqəti, imtahanlı həyatdadır və buradan sonra da bir hesab günü var. Burada yaşadıqlarının da sorğu-sualı olacaq. İman gətirdiyi məsələlər bunlardır. İman gətirib ki, onun Yaradanı var, ona varlıq verib, hazırda da Rəbblik edir, hər an onun mövcudiyyətini təmin edir, hər an o Rəbbin hüzurundadır. İnsan bütün bu şeyləri ki, bilir və onlara iman gətirib - bunları xatırlamalıdır.

Allahı xatırlamaq - əslində maqda.

## Allahın zikri - Həzrət Rəsulallahdır (s)

Həzrət İmam Sadiqdən (ə) bu ayə barədə soruşduqda, buyurur: **"Əziz Peyğəmbər Həzrət Muhəmmədlə (s) qəlblərlər aramlıq tapar və odur Allahın zikri"**. Allah zikrinin ən ali, ən gözəl nümunələrindən biri - əziz İslam Peyğəmbəridir (s). O Həzrətin (s) özüdür ki, qəlblərə aramlıq verər və Allahın ən böyük xatırlanması, ən böyük zikri odur. Bizim əziz Peyğəmbərimizə (s) nə qədər məhəbbətimiz olsa, nə qədər Peyğəmbərimi (s) özümüzə nümunə bilsək, nə qədər Peyğəmbərimizin (s) yolunda olsaq, əslində Allahı zikr etmiş, xatırlamış olarıq. Çünki Həzrət Rəsulallah (s) - Allahın **hər bir mömininin xasiyyətidir"**. Digər yerdə İmam Əli (ə) buyurur: **"Allahı gizlində yad edən kəs, Allahı çox yad etmişdir"**. İnsanın Allahı xatırlaması fövqəl dərəcədə mühüm məsələdir. Bəşəriyyətin həyatının hər müstəvidə mövzusu budur. Harada ki, Allahı yad etmək var - orada nuraniyyət var. Harada ki, Allahı yad etmək yoxdur - orada qəflət var, orada qaranlıq var, orada narahatlıq, qarmaqarışıqlıq var. Harada Allahın zikri olsa, orada aramlıq olar, qəlbin hüzur tapması olar, gözəl bir mənəvi ab-hava olar.

## Bəşəriyyət Allahı xatırlamaqdan uzaq düşüb

Təəssüflər olsun ki, Allahı xatırlama və Allahı yad etmək budur. İnsan özünü Rəbbin hüzurunda görsün, insan özünü Onun dərgahında görsün. Əgər özünü Onun hüzurunda, dərgahında görsə, bu zaman öz varlığının halına, vəziyyətinə, durumuna, necəliyinə nəzər salar. Bu haldadır ki, Allahla bağlantısı olar. Məhz bu halda qəlb özünün ən yaxşı, ən ali, ən gözəl vəziyyətində olar. Qəlbin ən ali, ən gözəl vəziyyəti bu zamandır. Əgər bu cür olmasa, qəflətdə olsa, qəlb başqa məsələlərlə məşğul olsa, o qəlbdə Allah üçün yer qalmaz. Qəlbin xüsusi cəhəti budur ki, yalnız bir məsələ ilə məşğul ola bilir. Əgər insan qəflət etsə, qəlb başqa məsələlərə tərəf yönəlir. Əgər qəlb başqa məsələlərə tərəf yönəldisə, artıq orada Allahın xatırlanması üçün bir şərait qalmaz. O zamandır ki, qəlb narahat olar, rahatlığını itirir, iztirablı halda olur.

Bu gün bəşəriyyətin ən ciddi mövzularından biri - məhz danışdığımız məsələdir. Hər kəs narahatdır, gərgindir, müəyyən iztirab içərisindədir. Nə edirsə, qəlbi rahatlıq tapa bilmir, aramlıq tapa bilmir. Rəbbimiz isə bizlərə mübarək Kitabında çatdırır ki, qəlb yalnız özünün doğru qidasını alan zaman rahatlıq tapa bilər. Bu da Allahı xatırlamaqdır. Allahı xatırlamaq yalnız bir söz deyil. Allahı xatırlamaq - əməlin özüdür. Bütün Allahın bəyəndiyi işləri görmək - Allahı xatırlamaqdır. Bizlər seçim edən zaman, Allah bəyənən işləri edən zaman Allahı xatırlamış oluruq. Bizlər günahlar edən zaman isə Allahı unutmuş oluruq. Bəşəriyyətin bütün dərdinin dərmanı buradadır - Allahı həqiqətdə xatırlahüzurunda Rəbbə bəndəliyin ən ali nümunəsidir. Əgər insan Həzrət Peyğəmbərin (s) həyatını özü üçün nümunə etsə və o cür yaşamağa çalışsa, əslində bunun özü ən ali dərəcədə Allahı xatırlaqmadır. Peyğəmbərin (s) həyatına diqqət etmək, o Həzrəti (s) sevmək - insanı Allaha aparan bir mövzudur.

Həzrət İmam Sadiqdən (s) bu ayə haqqında soruşduqda buyurur: **"Peyğəmbər (s) Əmirəlmömінin Əliyə (ə) buyurdu: "Bilirsən bu ayə kimin haqqında nazil olub? O kəs haqda nazil olub ki, məni təsdiq edə və mənə iman gətirə və səni və səndən sonra olan itrətinə iman gətirə, sevə və vilayət əmrini sənə və səndən sonra olan İmamlara təslim edə""**. Buradan da aydın olur ki, Allahı xatırlamanın ən ciddi nümunələrindən biri - Həzrət Peyğəmbərə (s) və onun pak Əhli-Beytinə (ə) sevgi, Həzrət Əmirəlmömin Əliyə (ə) və onun nəslindən olan məsum İmamlara (ə) sevgi və onların (ə) vilayətini qəbul etmək, onların (ə) vilayətini qəbul edib, əmrlərinə itaət etməkdir. Bunlar - Allahı zikr etmənin, Allahı xatırlamanın ən gözəl nümunələridir.

## Allahı xatırlamaq - Rəbbi sevənlərin ləzzətidir

Həzrət Əli (ə) buyurur: **"Allahı yad etmək - Allahı sevənlərin ləzzətidir"**. Allahı sevənlər üçün Allahı yad etmək o qədər ləzzətvericidir ki, bu, onların mövcudiyyətlərinin ən şirin anıdır. İnsan sevdiyi bir şeyi yad etdikdə, xatırlayanda ləzzət alar. Ona görə də, Allahı yad etmək, Onu sevənlərin ləzzəti hesab olunur.

Həzrət Əmirəlmömінin (ə) buyurur: **"Allahı yad etmək - hər yaxşı əməl sahibinin adəti və** kimi mühüm bir məsələ və bu mövzunun bəşəriyyətə öyrədilməsi, bəşəriyyət üçün davamlı diqqətdə saxlanılması, bu mövzuda davamlı olaraq insanların həyatının bütün çalarlarında diri qalması ilə bağlı insanlıq bir neçə əsrdir ki, qəflətdədir. Nə təlim-tərbiyə sistemi, nə məktəb, nə universitetlər, ümumi olaraq bəşəriyyətin çatdığı texnoloji nailiyyətlər bu istiqamətdə deyil. Bu mənada iradəvilik və seçimlilik məsələsinin önəmi bir qədər də artır. O kəslər ki, bu durumun içərisində, bu vəziyyətdə seçimli, iradəvi halda imanlarını diri saxlamağı bacararlar, Allahı xatırlayarlar, əməli halda Allahı yad etməyi bacararlar, bu vəziyyəti bütün mövcudiyyətlərinə tətbiq edərlər - bunun təsiri və əcri də çox böyük olar. Bütün məsələlərin həlli buradadır. Əgər bir müəllim tədris vaxtı, öz işini görərkən özünü Allah hüzurunda görərsə, işlərini Allahın razılığına uyğun olaraq tənzimləsə, elədiyinin əhəmiyyətini başa düşsə - onun müəllimliyi xeyli fərqlənər. Bir qələm əhli, bir natiq, bir yazar, bir zəhmətkeş - hər bir kəs özünü Allah hüzurunda bilsə, həyata baxışı dəyişər. Əgər qəflətdə olsa, qəlb başqa məsələlərə tərəf yönələr, başqa nöqtələrə diqqət edər. Qəlb nə ilə məşğuldursa, insanlar o tərəflərə yönələr.

**Allahım, bizlərə davamlı olaraq Səni xatırlamağı, Səni yad etməyi nəsib et!**

**Allahım, bizlərə Həzrət Rəsulallaha (s) və onun pak Əhli-Beytinə (ə) gerçək məhəbbət bəsləməyi, gerçək bağlantıda olmağı, onların vilayətində olmanı nəsib et!**

**Allahım, bizləri qəflət halında olmağa qoyma! Amin!**

# Azərbaycandakı "Mars" və "Snickers"lər satışdan çıxarılmayacaq

## İqtisadiyyat Nazirliyi: "Bizdəki "Snikers" və "Mars"lar tamamilə təhlükəsizdir"

## Azad İstehlakçılar Birliyi: "Bu, dəqiqliyi ilə araşdırılmalıdır"
















**Bir neçə gün öncə "Mars" və "Snickers" şokoladlarının Amerika istehsalçısı 55 ölkədən şokoladlarını geri çağırıb. Buna səbəb Almaniyada "Snickers" şokoladlarının batonlarının içində plastik hissəciklərin aşkar olunması göstərilir. İstehsalçının bəyanatında bildirilir ki, şirkət müştərilərinin keyfiyyətsiz mallar almasını istəmir.**

"Mars" və "Snickers"lə yanaşı, bazardan "Milky Way", "Milky Way Miniatures" şokoladları və "Celebrations" konfetləri də çıxarılacaq. "Mars" nümayəndəsi qeyd edib ki, bütün geri çağırılmış məhsullar "Mars", "Snickers" və "Milky Way" batonları daxil, Hollandiya zavodunda istehsal olunub.

Ötən il də "Mars" və "Snickers" şokoladları Fransada mağazalardan geri çağırılıb. Həmin məhsullarda xəstəlik törədən bakteriyalar aşkarlandığı qeyd olunurdu. Qida zəhərlənməsinə səbəb ola bilən "Bacillus subtilis" adlı bakteriya insan orqanizminə ciddi zərər vura bilər. Bu məhdudiyyət Almaniya və Hollandiya bazarlarında da tətbiq edilib. Həmçinin Hollandiyanın məhsulların keyfiyyətinə nəzarət idarəsi xəbərdarlıq edib ki, konfetlərin tərkibindəki plastik qırıntılar boğulmaya səbəb olur.

Maraqlıdır, şokoladları geri çağırılan ölkələr sırasında Azərbaycan da varmı? Azərbaycanda mağazalarda bu şokoladlar satılırmı? İnsan səhhəti üçün təhlükəli hesab edilən "Mars", "Snickers", "Milky way" şokoladlarının son istifadə tarixi 2016-cı il iyunun 19-u və 2017-ci il yanvarın 8-dək göstərilən şokoladlar hesab olunur. Biz də bir neçə marketə baş çəkib o tarixləri əhatə edən adıçəkilən şokoladların olub olmaması ilə maraqlandıq. Satışda kifayət qədər "Mars", "Snickers", "Milky way" şokoladları vardı. Ancaq həmin tarixlərdə şokoladlara rast gəlməsək də, ona yaxın 7 iyun 2016, 24 iyun 2016, 28 iyun 2016-cı il tarixli şokoladlara rast gəldik.

**Satıcı Emiliya Əliyevadan bu şokoladların zərərli olub olmadığını soruşduq. O, şokoladların insan səhhəti üçün təhlükəsiz olduğunu dedi:** "Adıçəkilən şokoladlar haqda olanları biz də eşitmişik. Amma bizə mağazadakı bu şokoladları yığışdırmağı heç kim göstəriş verməyib. Ona görə də satırıq, alanlar da olur".

**Baş çəkdiyimiz digər mağazanın satıcısı isə alıcıların narahat olduqlarını dedi:** "Alıcılar xəbəri eşidib bu şokoladların da zərərli olub-olmadığını soruşur. Bu şokoladlar zərərli şokolad partiyasından gələnlərdən deyil. Yəni tam təhlükəsizdir".

**Azad İstehsalçılar Birliyinin sədri Eyyub Hüseynov təhlükəli mal anlayışının müəyyən partiyaya aid olduğunu dedi:** "Əvvəlcə Azərbaycana gətirilən şokoladların həmin şokolad partiyasından olub-olmadığı müəyyənləşdirilməlidir. Demək olmaz ki, filan ölkənin bütün malları pisdir. Ümumiyyətlə, pis, təhlükəli mal anlayışı müəyyən partiya mala aid olur. Əlbəttə, istisna olunmur ki, Azərbaycana gətirilən şokoladlar həmin partiyadan olsun. Sadəcə olaraq, bu, dəqiqliyi ilə araşdırılmalıdır".

Qurum sədri ölkədə qida təhlükəsizliyi istiqamətində olan qanunlarda boşluq olduğunu da vurğuladı: "Ölkədə qida təhlükəsizliyi haqqında qanun yoxdur. Qanun olmayan, boşluq olan hər yerdə cinayət baş verir. Ümumiyyətlə, Azərbaycanda malların geri çağırılması prosedurası, bu haqda bir qanun yoxdur. Gərək belə bir prosedur həm yerli, həm də xarici istehsal mallarına aid olsun. Təsadüfi deyil ki, Azad İstehsalçılar Birliyi qida təhlükəsizliyi nişanını beş müəssisəyə şamil edəndə orada nəzərə alırıq ki, həmin müəssisələrin geri çağırılma prosedurası olsun. Biz o proseduradan yararlana bilirik. Yəni belə bir proseduranın olmadığı şəraitdə Azərbaycanda istisna olunmur ki, həmin partiyadan mal alına bilər. Çox təəssüflər olsun ki, "Mars" şokoladlarının Azərbaycanda nümayəndəliyi var. Bu sahədə çalışan, keyfiyyətə nəzarət edən dövlət orqanları var. Ancaq onların heç biri bir mövqe bildirmir. Bu isə çox pis cəhətdir".

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev isə anspress-ə açıqlamasında bildirib ki, yuxarıda qeyd edilən məhsullarla bağlı nazirlik yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə müraciət daxil olmayıb. Azərbaycanda satılan "Snickers" və "Mars" şokoladları tamamilə təhlükəsizdir. Şirkətin saytında yer alan məlumata görə, yalnız İrlandiyada istehsal olunan, etiketlərində son istifadə müddəti 19 iyun 2016-cı il və 8 yanvar 2017-ci il tarixləri göstərilən məhsullar geri çağırılıb. Azərbaycana gətirilən məhsullar İrlandiyadan gəlmədiyindən, onlarda heç bir problem yoxdur, ona görə də bu məhsullar satışdan çıxarılmayacaq.

Bir sözlə, rəsmi qurumların verdiyi məlumatlara inansaq, Azərbaycanda satılan adıçəkilən şokoladları rahatlıqla alıb yeyə bilərik. Bu şokoladlar tam təhlükəsizdir.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## 2 icra hakimiyyətinə 1 ittiham - rüşvət

**Dövlət qurumları ilə əlaqəli daha iki rüşvət qalmaqalı mətbuatda müzakirə mövzusuna çevrilib. Yasamal rayonu, Həsən bəy Zərdabi prospekti 89 ünvanındakı 13X36 metrlik ərazi 2 il öncə Yasamal Rayon İcra Hakimiyyəti tərəfindən sahibkar Ramiz Cəbrayıllıya verilib. Məlumatlara görə, sahibkar torpağı 500 min manata alb. Həmin vaxt Ramiz Cabbarlıya Yasamal rayonu ərazisində başqa yer də təklif olunub.**

Lakin iş adamı həmin təklifdən imtina edib. İstiqlal.az yazır ki, ərazidə çoxillik ağacların kəsilməsinə başlanıldıqda isə yaxınlıqdakı binanın sakinləri Prezident Administarsiyasına, Səhiyyə Nazirliyinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və digər dövlət orqanlarına müraciət ediblər. Nəticədə ərazidə aparılan işlər dayandırılıb. Şikayətçilərə də bildirilib ki, bu ərazidə ağaclar kəsilə və tikinti işləri aparıla bilməz. Lakin bugünlərdə ərazini satın almış Ramiz Cabbarlı bina sakinləri ilə görüşərək onlara müxtəlif vədlər verib. İş adamı hətta uşaqlar üçün əyləncə parkı tikməyi belə vəd edib. Lakin sakinlər onun təkliflərini qəbul etməyərək, ağacların kəsilməsinə imkan verməyəcəklərini bildiriblər. Bir gün sonra isə Ramiz Cabbarlı ərazini hasara aldırıb. Hasarlanmış ərazidə 20-yə yaxın ağac var. Məqsəd onları kəsərək yerində tikinti işləri aparmaqdır.

Yasamal Rayon İcra Hakimiyyətindən bildiriblər ki, torpağın satışı ilə Yasamal Rayon İcra Hakimiyyəti məşğul olmayıb. Əmlak Məsələləri Dövlət Komitəsi mətbuat xidmətinin rəhbəri Qulu Xəlilov isə bildirib ki, komitə bu ərazidə tikintiyə qadağa qoyub. O, torpağın Yasamal Rayon İcra Hakimiyyəti tərəfindən istifadəyə verildiyini qeyd edib. Deyib ki, ərazi icra hakimiyyətinin sərəncamı ilə istifadəyə verilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyi isə ərazidə ağacların kəsilməsini qadağan edib.

Nəsimi Rayon İcra Hakimiyyəti rəsmilərinə isə 300 min manatlıq rüşvət ittihamı səsləndirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Rafiq Əliyevlə Nəsimi Rayon İcra Hakimiyyəti arasındakı qalmaqal da getdikcə böyüyür. Sabiq komitə sədri virtualaz.org saytının müxbiri ilə söhbətində deyib ki, Nəsimi Rayon İcra Hakimiyyəti (RİH) başçısı Asif Əsgərovun ondan 300 min manat tələb edir. R.Əliyevin sözlərinə görə, həmin məbləğ ondan şəxsən icra başçısının adından tələb olunub, əks halda, tikintiyə icazə verilməyəcəyi bildirilib.

Komitə sədri imtina etdikdə isə sahibi olduğu və Vaqif prospekti, 103 ünvanında, 987-ci məhəllədə yerləşən "İrşad" hotelin yanındakı 1 sota yaxın ərazidə tikinti işlərinin aparılmasına imkan verilməyib.

❑ **E.HÜSEYNOV**

## Elan

**Təcili Hacıqabulda hər bir şəraiti olan- daimi suyu, işıgı, 3 yaşayış evi, böyük tövlələri, yem anbarı, 3 ha meyvə bagı olan ferma, ərazisi 0.5 ha olan yol kənarında yerləşən fermaya bitişik restoranla birgə satılır.**
**Sənədlər qaydasindadır. Qiyməti 150.000 $.**
**Əlaqə nömrəsi : 050-214-40-53**

***

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**
**Əlaqə nömrəsi (050) 264 49 99**

YENİ MÜSAVAT

Son səhifə

N 45 (6366) 26 fevral 2016

# Torba uşağının həyatını xilas etdi

10 həftə əvvəl dünyaya gələn İsaak Dervent 1 kilo olub. Körpə uşağın həyatını isə sendviç torbası xilas edib. Uşağın anası Cifer və atası Conatan birlikdə alış-veriş edərkən ana qarnında yüngül ağrı hiss edib. Lakin hamiləliyin 30-cu həftəsində olduğu üçün bu ağrını ciddi qəbul etməyib. Gənc qadın ilk uşağı doğularkən xəstəxanaya yetişə bilmədiyi üçün uşağı evdə dünyaya gətirmişdi. Eyni şeyi yaşamaq istəməyən qadın əri ilə birlikdə tez xəstəxanaya gedib. Lakin o, xəstəxanaya çatmadan uşaq yolda dünyaya gəlib. Ata-ana erkən dünyaya gələn uşaqlarını sendviç torbası ilə büküblər. Xəstəxanaya çatdıqları zaman 1 kilo ağırlığındakı körpəni görən həkimlər təəccübləniblər. Cenifer uşağı sendviç torbası ilə bükərək bədən temperaturunun aşağı düşməməsinə şərait yaradıb. İsaak 5 həftə xəstəxanada qaldıqdan sonra səhhəti yaxşılaşıb. İsaakın ailəsi üçün bu, qeyri-adi vəziyyət deyildi. Çünki ilk uşaqları da qəribə şəkildə dünyaya gəlmişdi.





## Günorta yuxusunun bədənə faydaları

7-dən 70-ə hər kəsin ehtiyacı olan yuxu gündüz saatlarında daha təsirli olur. Mütəxəssislər uşaqların inkişafında, yeniyetmələrin isə daha da məhsuldar işinə müsbət təsiri olan günorta yuxusunu tövsiyə edirlər. Günorta yuxusunun ən azı gecə yuxusu qədər insan bədəninə faydası vardır. Gecə kifayət qədər yatmış, gündüz də günorta yuxusu yatan bir adamın bədəni təzələnir, performansı artır, düşünmə və problem həlletmə qabiliyyəti sürətli olur. Gün içərisində iki dəfə bədən istiliyi düşür. Biri səhərə qarşı 03:00 sıralarında, digəri isə günortadan sonra 14:00 - 15:00 saatları arasında. İnsanların günorta yeməyini düşündüyü vaxt əslində bədənin yuxuya ən meylli olduğu zamandır. Bu saat silsilələri yuxunun ən keyfiyyətli olduğu zamandır. Keyfiyyətli yuxu insan bədəninə uzun müddət yatmaqdan daha çox fayda verir. İmkanı olan hər kəsin günorta yuxusunu yatması məsləhətdir. Ancaq xüsusilə uşaqların günorta saatlarında mütləq yatmaları lazımdır. Uşaqlıq çağında günorta saatlarında alınan keyfiyyətli yuxu beyin və bədənin inkişafı üçün böyük əhəmiyyət daşıyır. Çünki yuxu böyümə baxımından çox əhəmiyyətlidir. Uşaqların təxminən 1-2 saat günorta yuxusuna ehtiyacı vardır. Yeniyetmələr üçün isə 15-20 dəqiqə kifayətdir.

## Xərçəng hüceyrələrini məhv edən 11 qida

**Üzüm xüsusilə bağırsaq xərçəngi hüceyrələrinin böyüməsinə mane olmaq xüsusiyyətinə malikdir.**

**Spirulina yosunu:** araşdırmalarda tərkibindəki dəmir və maqneziumla birlikdə xüsusilə döş xərçəngi hüceyrələrinin inkişafını əngəllədiyi sübut olunub.

**Xaş-xaş yağı** orqanizmdə xərçəng hüceyrələri ilə döyüşən melatoninin səviyyəsini yüksəldir.

**Pomidor:** daşıdığı likopen sayəsində xərçənglə döyüşür.

**Göbələk:** antiviral və antikanser təsirə malik 50-dən çox göbələk növü olduğu müəyyən edilib.

**Klorella** toxumalarda oksigeni artırdığı üçün xərçəng hüceyrələrinin çoxalmasını əngəlləyir.

**Sarımsağa** spesifik ətir və dad verən allisin maddəsi dünyanın ən güclü antoksidantıdır. Xərçəng hüceyrələrini 24 saatda öldürdüyü göstərilib.

**Roka, brokkoli, kələm, turp, kahı** kimi tərəvəzlər xərçəng hüceyrələrini məhv edir.

**"Katexin"** deyilən bitkidən hazırlanan yaşıl çay ürək-damar sistemi hüceyrələri üzərində təsirlidir.

**Zəncəfilin** iltihab əleyhinə xüsusiyyəti sayəsində şiş hüceyrələrinin 56 faiz azaldığı müşahidə olunub.

**Sarıkök** iltihabla mübarizə apararaq bu xüsusiyyəti sayəsində xərçəng hüceyrələrinin inkişafına mane olur (publika.az).






## "WhatsApp"a bu il gələcək yeniliklər

İstifadəçi sayını gün-gündən sürətlə artıran ani mesajlaşma sistemi olan "WhatsApp" yeniliklər etməkdə davam edir. İstifadəçilərinin hər cür rahatlığını təmin edərək onları təəccübləndirməkdə davam edən şirkət yeni xidmətlər planı hazırlayır. Zəng, internet üzərindən söhbət xidmətlərini təkmilləşdirən "WhatsApp" öz yeni hədəflərini artıq müəyyənləşdirib. Şirkət əsasən iOS və "iPhone" üçün bir neçə xüsusi sistem hazırlayır. Hazırlanan yeni xidmətlər sırasına videosöhbət, təkmilləşdirilmiş 3D Touch (İOS), foto tənzimləmə və s. daxildir. Bundan başqa, bu il dizayn dəyişikliyi də nəzərdə tutulub. "WhatsApp" smartfonlar üçün ani mesajlaşma mübadilə sistemidir. Mətn mesajlarını, təsvirləri, videonu və audionu göndərməyə imkan verir. 2009-cu ildə Cen Koum və Brayan Akton tərəfindən əsası qoyulub. "WhatsApp" mesajlaşma xidmətinə sahib olan "Facebook" şirkətindən verilən məlumata görə, mesajlaşma xidmətindən istifadə edənlərin sayı 1 milyarda çatıb. Bu isə "Facebook Messenger"dən də çox istifadəçi deməkdir.




**QOÇ** - Faciə gününə təsadüf etsə də, müəyyən insanlarla görüşüb mövcud problemlərinizin həllinə çalışa bilərsiniz. Çünki bugünkü söhbətlərin əhəmiyyəti böyükdür. İmkan tapıb qonaq gedin.

**BUĞA** - Qərarlarınızda qəti olsanız, heç bir narahatçılıqla üzləşməyəcəksiniz. Bu gün darıxdığınız adamların bir çoxu ilə görüşəcəksiniz. Axşama yaxın təzə hadisələrin şahidi olacaqsınız.

**ƏKİZLƏR** - Səhhətinizlə bağlı diqqətli olmağınız vacibdir. İqlimin dəyişkənliyi, ətrafınızda olan insanları qəbul etməməyiniz sinir sisteminizdə mənfi fəsadlar yarada bilər. İstirahətə fikir verin.

**XƏRÇƏNG** - Çağırılmamış ünvanlara qonaq getməyin. Əks təqdirdə, məyusluqla qarşılaşacaqsınız. İxtiyarınızda olan bu gündə qonum-qonşuların dedi-qodusundan yayınmağa çalışın. Tədbirli olun.

**ŞİR** - İndiki məqamda xilas yolunuz yalnız dost və müttəfiqlərinizdən asılıdır. Çünki əsaslı dönüş etmək üçün fiziki və psixoloji cəhətdən o qədər də hazır deyilsiniz. Sağlamlığınıza fikir verin.

**QIZ** - Ulduzlar nahara qədər istirahət etməyinizi məsləhət görür. Əgər ciddi işlərə girişsəniz, uğurlu nəticə hasil olmayacaq. Günün ikinci yarısında isə maraqlı hadisələr gözlənilir.

**TƏRƏZİ** - Ay bürcünüzdə yerləşdiyi üçün səhhətinizdə problemlər ola bilər. Əsəbinizi cilovlayın, gün ərzində kiməsə yamanlıq etməyin. Nahar saatlarında yaxşı xəbər eşidəcəksiniz. Səfərə çıxmaq da olmaz.

**ƏQRƏB** - Bütün danışıq və sövdələşmələri təxirə salıb oturaq işlərlə məşğul olun. Əks təqdirdə, təxribat və ya böhtanla üzləşəcəksiniz. Yaxşısı budur, enerjinizi ailə və sevgiyə yönəldəsiniz.

**OXATAN** - Astroloji göstəricilər yalnız səfərə çıxmaqla yüksək əhval-ruhiyyəyə yiyələnəcəyinizi proqnozlaşdırır. Bu fürsəti fövtə verməyin. Bu gün büdcənizin böyümə ehtimalı da var.

**OĞLAQ** - Bu təqvimdə ulduzlar daha çox sizin zodiaka pul vəd edir. Bu səbəbdən də boş durmağınıza lüzum yoxdur. Büdcənizi artırmaq üçün ağlınıza gələn bütün ünvanlara və adamlara baş çəkin.

**SUTÖKƏN** - Təxminən saat 12-yə qədər bürcünüz üçün bəzi xoşagəlməzliklər mümkündür. Özünüzü gərgin və anlaşılmaz situasiyalara cəlb etməyin. Nahardan sonrasa maraqlı görüş və pul gözlənilir.

**BALIQLAR** - Günün ümumi mənzərəsi hüznlü olduğundan bütün riskli işləri təxirə salın. Əsas vaxtınızı istirahətə həsr etməklə qarşıdakı günlərin planlarını qurun. Aldığınız təklifləri düşüncə süzgəcindən keçirin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Şahzadənin mirası sürücüyə qaldı



Almaniyada bir məhkəmə son İran şahı Məhəmməd Rza Pəhləvinin ikinci arvadı şahzadə Surəyyanın mirasının onun vəfat etmiş qardaşının sürücüsünə verilməsi barədə qərar çıxarıb. Şahzadənin mirası haqqında qərar ölümündən 15 il sonra verilib. 69 yaşlı şahzadənin övladı olmadığı üçün mirası qardaşı Bijan Esfandiariyə qalıb. Lakin qardaşı da şahzadədən 1 həftə sonra dünyasını dəyişib. B.Esfandiyarinin mirası açıqlandığı zaman məlum olub ki, o bütün mal varlığını sürücüsünə bağışlayıb. Lakin şahzadənin qohumları buna etiraz edib. 15 il davam edən məhkəmə prosesindən sonra miras yenidən B.Esfandiyarinin sürücüsünə verilib.

Şahzadə Surəyyanın Fransadakı sərvəti xeyriyyə qurumlarına bağışlanıb. İran və alman əsilli şahzadə 1951-ci ildə şah Məhəmməd Pəhləvi ilə evlənib, amma uşaqları olmadığı üçün boşanıblar.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.